RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 72 (9239) 8 APREL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan və Gürcüstan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir

◆ **Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri**

## Təkbətək görüş



2

## Mətbuata bəyanatlar



2



## "ASAN xidmət" mərkəzi ilə tanışlıq



3

## İlham Əliyev və İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində olublar



3

## Prezident İlham Əliyevin adından Gürcüstanın Baş nazirinin şərəfinə nahar verilib

Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin şərəfinə nahar verilib.

## Azərbaycan ÜST-lə səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək




## Azərbaycan parlamenti İranı təxribatçı hərəkətlərdən çəkinməyə çağırdı

Hamı bilməlidir ki, Azərbaycan müstəqil dövlətdir və hansı ölkə ilə necə münasibətlər qurması onun öz daxili işidir. Azərbaycanın suveren hüquqlarına qarışmağa heç kəsin ixtiyarı yoxdur.

Biz İran parlamenti tərəfindən ölkəmizə qarşı irəli sürülmüş əsassız ittihamları qətiyyətlə rədd edirik. İran parlamentini Azərbaycana qarşı bu cür təxribatlara son qoymağa və ikitərəfli münasibətlərə xələl gətirə bilən hərəkətlərdən çəkinməyə çağırırıq.

5

## Azərbaycan-Tacikistan iqtisadi əlaqələri qarşılıqlı etimada əsaslanır

Prezident İlham Əliyev mətbuata açıqlamasında bildirmişdir: "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa, nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı".

11

**Zərifə Əliyeva - 100**

## Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana



### Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı

Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib.

Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

***AMEA Rəyasət Heyətinin binasında keçirilən konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa HƏBİBBƏYLİ** diqqətə çatdırdı ki, dövlət başçısı İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixli Sərəncamından sonra ölkəmizin elm və təhsil müəssisələrində, səhiyyə sistemində görkəmli elm xadiminin yubileyi geniş şəkildə qeyd olunur.*

Zərifə xanım Əliyevanın çoxcəhətli elmi və tibbi fəaliyyəti təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb edir və aktuallığını qoruyur. Ölkəmizdə XX əsrin birinci yarısına qədər daha çox terapiya və cərrahiyyə sahələrinin inkişaf etdiyini vurğulayan AMEA rəhbəri məhz Zərifə xanım Əliyevanın xidmətləri sayəsində əsrin ikinci yarısından başlayaraq Azərbaycanda oftalmologiya elminin və göz xəstəlikləri tədqiqatlarının inkişaf edən sahələrdən birinə çevrildiyini söyləyib.

6-7

## Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri

# Azərbaycan və Gürcüstan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir

## Təkbətək görüş

Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qarşıladı.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin olduğu qeyd edildi.

Prezident İlham Əliyev keçən ilin oktyabrında Gürcüstana səfərini məmnunluqla xatırladı və səfər zamanı aparılmış müzakirələrin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinin bu səfəri zamanı aparılacaq müzakirələrin önəmini vurğuladı. Azərbaycan Prezidenti bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti vurğulandı. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd olundu. Həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi vurğulandı. Azərbaycanın və Gürcüstanın Orta dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi qeyd olundu.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü bildirildi, Azərbaycanın SOCAR şirkətinin Gürcüstanda uğurlu fəaliyyəti xüsusi vurğulandı.

Söhbət zamanı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin əhəmiyyəti, həmçinin Qara dənizin dibi ilə kabelin çəkilməsinin, bu xüsusda Azərbaycanın və Gürcüstanın digər tərəfdaşlarla işbirliyinin önəmi qeyd edildi.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq məsələlərini müzakirə etdilər.

Gürcüstanın Baş naziri bu il Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illiyinin qeyd olunduğunu vurğuladı, Ümummilli Liderin əziz xatirəsinin gürcü xalqı tərəfindən də böyük hörmət və ehtiramla anıldığını bildirərək Ulu Öndərin Gürcüstanın və gürcü xalqının böyük dostu olduğunu qeyd etdi.



## Mətbuata bəyanatlar

Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Altı ay bundan əvvəl biz Gürcüstanda Sizin qonağınız idik və bu gün Siz Azərbaycandasınız. Mən Gürcüstanda olarkən Mçxeta rayonunda olmuşdum. Bu gün Siz Qəbələ rayonundasınız. Hesab edirəm ki, bu, çox yaxşı bir ənənədir. Çünki beləliklə, biz həm Gürcüstanın, həm də Azərbaycanın maraqlı tarixi yerləri ilə tanış oluruq və bu, bizim dostluğumuzu daha da gücləndirir.

Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir, biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır. Müzakirə olunan bütün məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq.

Bu gün bir çox önəmli məsələlər müzakirə olunmuşdur və biz gələcək fəaliyyətimizi də əldə edilmiş razılaşmalar əsasında quracağıq.

Təbii ki, Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir. Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı ildən-ilə artmaqdadır. Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır.

Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq.

İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır. Uzun illərdir ki, Azərbaycan şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. Dünən mənə verilən məlumata görə, SOCAR Gürcüstanda 11 min kilometr uzunluğunda qaz xətləri çəkmişdir və beləliklə, 830 mindən çox abonenti təbii qazla təmin edir.

Biz gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə fəal işləyəcəyik, daha doğrusu, bu iş artıq başlamışdır. Keçən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya önəmli sazişə imza atmışlar. Bu ilin fevral ayında isə Bakıda "yaşıl enerji" layihəsinin birinci rəhbər komitəsinin iclası keçirilmişdir. Bu, genişmiqyaslı layihədir. Əlbəttə ki, bu layihənin uğurla həyata keçirilməsi həm dörd ölkənin birgə fəaliyyəti hesabına mümkün olacaqdır, eyni zamanda bildiyiniz kimi, Avropa İttifaqı da bu layihəyə çox böyük önəm verir. Təsadüfi deyil ki, Avropa Komissiyasının prezidenti imzalanma mərasimində də iştirak etmişdir.

Təbii ki, ikitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır. Burada da bütün işlər uğurla gedir, plan üzrə gedir. Orta dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımalarının həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır.

Mən keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etmişəm və bu il hələ edəcəyəm. Beləliklə, yeni yüklərin Orta dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir. Təbii ki, bu gün bu məsələ də geniş müzakirə olunub və hələ olunacaq.

Bu, əsas fəaliyyət istiqamətləri idi. Amma, təbii ki, Gürcüstan-Azərbaycan əlaqələri sadaladığım sahələrlə məhdudlaşmır. Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir - müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı. Əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır. Əminəm ki, cənab Baş nazirin bugünkü səfəri bizim əlaqələrimizə yeni təkan verəcəkdir.

Hörmətli Baş nazir, bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.

### Baş nazir İrakli Qaribaşvilinin bəyanatı



- Cənab Prezident, əziz dostum, mən Sizi salamlayıram.

Hörmətli İlham müəllim, mən bu gün ölkənizin bu füsunkar bölgəsində olmaqdan böyük şərəf duyuram. Mənim dostum Azərbaycan Prezidenti cənab İlham Əliyevə bizə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Siz düz qeyd etdiniz ki, bir neçə ay öncə Gürcüstanda səfərdə oldunuz. Bu, artıq yeni bir ənənədir ki, biz yalnız paytaxtlara deyil, həm də bölgələrə səfər edirik. Bu, çox gözəl təşəbbüsdür və bu gün də bizim burada olmağımız bunun sübutudur.

Bir daha onu qeyd etmək istərdim ki, Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir. Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi. Biz yaxşı mənada birbirimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu, belə olacaqdır. Biz dəfələrlə bu mühüm layihələri qeyd etmişik.

Məlumdur ki, Gürcüstan da etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, biz bu fəaliyyətimizi davam etdiririk və dayanmırıq. Bildiyiniz kimi, biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta dəhliz məsələsini inkişaf etdiririk. "Yaşıl enerji"ni Avropaya nəql etmək üçün bizim nəhəng potensialımız mövcuddur, bunun çox böyük perspektivləri var. Bu,



bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq. Biz bunu da müzakirə etdik.

Bundan əlavə, əlbəttə ki, biz regiondakı vəziyyəti müzakirə etdik. Hazırda Ukraynadakı vəziyyət müzakirə edildi, burada risklər, çağırışlar mövcuddur. Elə çağırışlar ki, onlar İkinci Dünya müharibəsindən sonra mövcud deyildi. Bizim başlıca amalımız sülh və sabitliyin təmin edilməsidir. Çünki bunlar olmasa, heç bir inkişaf və firavanlıqdan söhbət gedə bilməz.

Biz yeni iş yerləri açmalıyıq və xalqlarımızın firavanlığını təmin etməliyik. Biz bu sahədə eyni baxışa malikik. Ölkələrimiz arasında münasibətlərin daha sıx olmasını arzulayırıq.

Onu da əlavə etmək istəyirəm ki, biz Orta dəhliz layihəsi üzrə birgə koordinasiyalı şəkildə çalışırıq. Bizim məqsədimiz də yaxın gələcəkdə bütün maneələri aradan qaldıraraq infrastrukturu - dəniz limanlarımızı, dəmir yollarımızı birgə inkişaf etdirməkdir. Bildiyiniz kimi, biz Gürcüstanda yeni limanın inşası üzərində çalışırıq. Bir ildən sonra biz dəmir yolunun genişləndirilməsi layihəsini həyata keçirəcəyik, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti genişləndiriləcək və biz Orta dəhliz vasitəsilə daha çox yüklər cəlb edə biləcəyik.

Bunu bir daha qeyd etmək istərdim ki, bizim əsas məqsədimiz regionda sülhü və sabitliyi təmin etməkdir. Regionda daha çox layihələr həyata keçirməliyik və biz işimizi gözəl qardaşlıq mühitində irəli aparacağıq.

Cənab Prezident, bir daha Sizə hədsiz minnətdarlığımı bildirirəm. Bu il ölkənizdə Siz dahi atanız Heydər Əliyevin 100 illiyini qeyd edirsiniz. Siz bizim dostumuzsunuz və Heydər Əliyev də Gürcüstanın böyük dostu olub. Sizə və Azərbaycan xalqına sülh və sabitlik arzu edirəm. Təşəkkür edirəm diqqətinizə görə.

❖ ❖ ❖

Sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ şəhəri ilə tanış edilib.

## Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri

# Azərbaycan və Gürcüstan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir

## "ASAN xidmət" mərkəzi ilə tanışlıq

Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ regional "ASAN xidmət" mərkəzində olublar.





AZƏRTAC xəbər verir ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəzin fəaliyyəti ilə bağlı məlumat verdi.

Prezident İlham Əliyevin iştirakı ilə 2016-cı il avqustun 10-da açılışı olan mərkəz müvafiq sahələr üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərir. Yeddiillik fəaliyyəti dövründə regional mərkəzə ümumilikdə bir milyona yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda, səyyar "ASAN xidmət" avtobusu vasitəsilə 220 mindən çox vətəndaş müraciəti qəbul edilib. Burada gündəlik orta müraciət sayı 1000-ə yaxındır.

Qəbələ regional "ASAN xidmət" mərkəzində indiyədək 673 könüllü fəaliyyət göstərib. Ötən dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr tamaşaları, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.

Tanışlıq zamanı "ASAN xidmət" mərkəzlərinin fəaliyyətindən bəhs edən videoçarx göstərilib. Qeyd olunub ki, hazırda 24 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakıda, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq", "Azərsu" və "Azəriqaz" tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 624 mindən çox vətəndaşın 61 milyona yaxın müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faizdir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan bəri 2 milyon 773 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Məlumat verilib ki, könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 30 mindən çox könüllü gənc qoşulub. Bu günədək 3300-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Həmçinin bildirilib ki, Dövlət Agentliyi öz fəaliyyəti çərçivəsində 16 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb. Bundan başqa, bir neçə ölkədən "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda danışıqlar davam etdirilir.

Sonda Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə "ABAD-çı ailə" tərəfindən hazırlanmış əl sənətkarlığı məhsulu hədiyyə olunub.



# İlham Əliyev və İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində olublar





Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində də olublar.

AZƏRTAC xəbər verir ki, Qəbələ Qida Şəhərciyinin baş direktoru Fuad Babayev Azərbaycan Prezidentinə və Gürcüstanın Baş nazirinə məlumat verdi.

Qeyd olundu ki, 16 hektar ərazidə yerləşən Qəbələ Qida Şəhərciyinin nəzdindəki konserv zavodu qabaqcıl Avropa texnologiyaları ilə təchiz edilib. Zavod meyvə şirəsi, limonad, qazlı və qazsız içkilər, soyuq çay və konsentrat istehsalı sahələrindən ibarətdir. Buradakı 13 istehsal xəttində 6 növ qablaşdırmada 130 adda məhsul istehsal edilir. Müəssisə ildə 360 min ton hazır məhsul istehsalı gücünə malikdir.

Saatda 10 min litr dolum sistemi vasitəsilə plastik qablaşdırmada meyvə tərkibli içkilər və soyuq çay, şirə və nektar istehsalı xətti isə saatda 20 min litr meyvə şirəsi və konsentrat istehsal etmə imkanına malikdir. Digər xətdə isə saatda 35 min litr hazır limonad və digər qazlı sərinləşdirici içkilər, qazlı və qazsız su istehsal olunur.



Müəssisədə qablaşdırma mərhələsindən əvvəl müəyyən reseptlər əsasında hazırlanmış tərkiblər laboratoriyada yoxlanılır və təsdiqləndikdən sonra istehsala göndərilir. Burada bütün istehsal prosesi tam avtomatlaşdırılıb. Qəbələ konserv zavodunda istehsal olunan məhsullar bir çox xarici ölkələrə ixrac edilir.

Məlumat verildi ki, kartof emalı müəssisəsində iki istehsal xətti fəaliyyət göstərir. Burada yarımfabrikat dondurulmuş kartof və kartof çipsi istehsal olunur. Yarımfabrikat dondurulmuş kartof istehsalı xəttinin hazır məhsul buraxılışı gücü saatda 2 ton təşkil edir. Çips istehsalı xəttinin gücü isə saatda bir ton hazır məhsuldur. Hər iki istehsal xətti tam avtomatlaşdırılmış sistem üzrə çalışır. Qəbələ rayonunda şirkətə məxsus olan 200 hektar ərazidə ildə 10 min tondan çox kartof yetişdirilir ki, bu da istehsal müəssisəsinin illik xammal tələbatını tam ödəyir. Kartof emalı müəssisəsinin istehsal etdiyi məhsullar ölkəmizdə təqdim olunmaqla yanaşı, bir sıra xarici ölkələrə də ixrac edilir. Sahələrdən yığılan kartof 6 min kvadratmetrlik ilkin soyuducu anbara yerləşdirilir. Müəssisədə həmçinin keyfiyyətə nəzarət laboratoriyaları fəaliyyət göstərir. İstehsala göndərilməzdən əvvəl məhsulun fiziki-kimyəvi göstəriciləri yoxlanılır.

## R.K.Qurbanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil Kamil oğlu Qurbanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2023-cü il*

## A.X.Hüseynovun Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Xeybər oğlu Hüseynov Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2023-cü il*

## "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110; 2008, № 6, maddə 498; 2013, № 12, maddə 1508; 2014, № 9, maddə 1027; 2016, № 3, maddə 469, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1677; 2022, № 4, maddə 305, № 5, maddə 471, № 9, maddə 1028; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2050 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə" üzrə:

1.1. 4.1-ci bənddə "mərkəzi icra hakimiyyəti orqanlarının" sözləri "dövlət orqanlarının (qurumlarının)" sözləri ilə əvəz edilsin;

1.2. 4.5-ci bəndə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin;

1.3. 4.10.1-ci yarımbənddə "səkkiz" sözü "doqquz" sözü ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi"nin "Şuranın üzvləri" hissəsinə aşağıdakı məzmunda on birinci və on ikinci abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2023-cü il*

# Baş nazir Əli Əsədov Qazaxıstan Baş nazirinin müavini ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 7-də Qazaxıstan Respublikası Baş nazirinin müavini - ticarət və inteqrasiya naziri Serik Jumanqarin ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Qazaxıstan arasında müxtəlif sahələrdə əlaqələrin uğurlu inkişafı qeyd olunub. Tərəflər ikitərəfli əmtəə dövriyyəsinin artım sürətini müsbət qiymətləndiriblər.

Görüşdə Bakıda keçirilən Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının gündəliyində duran məsələlərə toxunulub. Tərəflər həmçinin ticari-iqtisadi, investisiya, nəqliyyat-logistika, sənaye, mədəni-humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə gələcək perspektivləri müzakirə ediblər.

# Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallıq Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənlə görüşüb

Aprelin 7-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Birləşmiş Krallıq Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri Birləşmiş Krallıq Parlamentinin nümayəndə heyətinin ölkəmizə səfərini yüksək qiymətləndirib. Spiker qonaqlara Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra bölgədə yaranmış yeni vəziyyət, ölkəmizin sülh təşəbbüsləri barədə danışıb, iki ölkənin parlamentlərarası əlaqələrinin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb, bu sahədə dostluq qruplarının rolunu vurğulayıb.

Bob Bləkmən ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərdən, aparılan danışıqlardan məmnunluğunu ifadə edib. Qonaq Ağdam şəhərinə səfəri barədə təəssüratlarını bölüşüb, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işlərini yüksək qiymətləndirib, bölgədəki vəziyyət barədə fikirlərini səsləndirib.

***"Azərbaycan"***

# Qəbələ Beynəlxalq Hava Limanında qarşılanma

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili aprelin 7-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.



# Gürcüstan KİV-i Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin mətbuata bəyanatlarında səsləndirdikləri fikirlərə geniş yer verib

Gürcüstanın aparıcı KİV-i bu ölkənin Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana səfərini və Prezident İlham Əliyev ilə görüşünü, Azərbaycan Prezidentinin və Gürcüstanın Baş nazirinin mətbuata bəyanatlarında söylədikləri fikirləri geniş işıqlandırıb.




AZƏRTAC xəbər verir ki, qonşu ölkənin **GHN** xəbər portalında yayımlanan məqalədə Prezident İlham Əliyevin "Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır" fikri xüsusi vurğulanıb. Məqalədə dövlətimizin başçısının Gürcüstanın və Azərbaycanın bir-biri ilə sıx bağlı olan ölkələr olduğunu qeyd etməsi oxucuların diqqətinə çatdırılıb. Eyni zamanda altı ay əvvəl Prezident İlham Əliyevin Gürcüstana səfəri zamanı Mçxeta bölgəsində, bu gün isə İrakli Qaribaşvili ilə Qəbələ rayonunda keçirilən görüşlərin hər iki ölkənin heyrətamiz tarixi və mədəni irsi ilə tanış olmağa imkan verdiyi xüsusi qeyd edilib.

Məqalədə dövlətimizin başçısının fikrinə istinadla bildirilib ki, ölkələrimiz arasındakı dostluq əlaqələri və əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün həlledici əhəmiyyətə malikdir. Azərbaycan Avropaya təbii qazın nəqlinin miqyasını və həcmini hər il artırır. Bu rəqəm artır və ötən il Avropa İttifaqı ilə imzalanan Anlaşma Memorandumuna əsasən, Azərbaycan 2027-ci ilədək təkcə Avropaya 20 milyard kubmetrdən çox təbii qaz tədarük edəcək.

**"1tv.ge"** televiziya kanalının yaydığı xəbərdə vurğulanıb ki, Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlıqda mühüm komponentlərdən biri də nəqliyyatdır. Bu istiqamətdə də işlər plan üzrə uğurla davam etdirilir. Məqalədə Azərbaycan Prezidentinin mətbuata bəyanatında ifadə etdiyi aşağıdakı fikirlər xüsusi vurğulanıb: "Orta dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımaların həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır. Mən keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etmişəm və bu il hələ edəcəyəm. Beləliklə, yeni yüklərin Orta dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir".

**"Adjaratv.ge"nin** yaydığı materialda da Prezident İlham Əliyevin Gürcüstanın və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaması və bu rolun hər gün daha da artması barədə fikrinə xüsusi yer verilib. "Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında bu dostluq əlaqələri və əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi baxımından həlledici əhəmiyyətə malikdir", - deyə məqalədə vurğulanıb.

**"Radiotavisupleba.ge"** portalında yayımlanan məqalədə isə Prezident İlham Əliyevin iştirakı ilə ötən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın imzaladığı sazişin əhəmiyyətinə toxunulub. Layihənin uğurla həyata keçirilməsi üçün birgə səylərin önəminin vurğulandığı yazıda bildirilib ki, Avropa İttifaqı artıq bu layihəyə böyük önəm verib. Yazıda Azərbaycan Prezidentindən bu sitat gətirilib. "Uzun illərdir ki, Azərbaycanın SOCAR şirkəti Gürcüstanda uğurla fəaliyyət göstərir və dünən aldığım məlumata görə, Gürcüstanda 800 min istehlakçı və abonenti qazla təmin edilir.

**"Resonansedaily.com"** saytında Azərbaycanın və Gürcüstanın dövlət və hökumət başçılarının ölkələrimiz arasında əməkdaşlıq və regional təhlükəsizlik məsələləri, Qafqaz regionu ilə Avropanı birləşdirən Qara dəniz sualtı elektrik kabeli layihəsi, eləcə də regionda sülh və sabitliyin vacibliyi barədə fikirlərinə geniş yer verib. Məqalədə bildirilib ki, Gürcüstan regionda sülhün və sabitliyin təmin olunmasına bundan sonra da töhfə verməyə hazırdır.

**"Ambebi.ge"** saytında dərc olunan məqalədə Prezident İlham Əliyevin mətbuata bəyanatında söylədiyi "Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir" fikri sərlövhəyə çıxarılıb. Yazıda Prezident İlham Əliyevin Gürcüstanın və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaması barədə sözləri də oxuculara təqdim olunub. Azərbaycanın Avropaya qaz ixracını ildən-ilə genişləndirməsinin qeyd olunduğu xəbərdə vurğulanıb ki, bu il beynəlxalq bazarlara 24,5 milyard kubmetr qaz ixrac ediləcək və bu rəqəm hər il artır. Yazıda bununla bağlı dövlətimizin başçısının çıxışından aşağıdakı fikirlər oxucuların diqqətinə çatdırılıb: "Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır. Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq. İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır".

**"Accentnews.ge"** və **"Europetime.ge"** nəşrlərinin yaydığı xəbərlərdə Gürcüstan-Azərbaycan dostluq əlaqələrinin Avropanın enerji təhlükəsizliyi üçün vacib rol oynadığı vurğulanıb.

Gürcüstanın "Interpressnews.ge", "24 news.ge", "Apsny.ge", "Qafqazturk.com", "Newsday.ge", "Dalgatv.ge", "Interpress.ge", "Aktual.ge" xəbər portalları, "Rustavi2", "Maestro" televiziya kanalları da səfər və mətbuata bəyanatlarda səsləndirilən fikirlər barədə Azərbaycan, gürcü, ingilis və rus dillərində silsilə materiallar dərc ediblər. Materiallarda Prezident İlham Əliyevin və İrakli Qaribaşvilinin ölkələrimiz arasında dostluq, müttəfiqlik münasibətləri, xalqlarımızın qardaşlıq əlaqələri, eləcə də belə yüksəksəviyyəli görüşlərin bölgələrdə keçirilməsinin Azərbaycan-Gürcüstan dostluğunun möhkəmləndirilməsi ilə bağlı fikirlərinə xüsusi yer verib. Baş nazir İrakli Qaribaşvilinin "Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır" fikirləri bu baxımdan qeyd olunub. Xəbərlərdə həmçinin Azərbaycanın və Gürcüstanın Orta dəhlizin həyata keçirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında uğurla fəaliyyət göstərdikləri diqqətə çatdırılıb.

# Yeni qanunun qəbulu elektroenergetika sahəsinin inkişafına xidmət edəcək

Aprelin 7-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib. İclasda energetika naziri Pərviz Şahbazov, Enerji Məsələlərini Tənzimləmə Agentliyi İdarə Heyətinin sədri Samir Axundov, energetika nazirinin müavini Samir Vəliyev, nazirliyin şöbə müdirləri Ələsgər Həsənov və İbrahim Ağayev iştirak ediblər.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov diqqətə çatdırıb ki, iclasın gündəliyinə 4 məsələ - "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş), habelə "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş), "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş), "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələri daxil edilib.

Əvvəlcə, iclasda "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) təqdim olunub. Komitə sədri Sadiq Qurbanov qanun layihəsinin Milli Məclisin plenar iclasında birinci və ikinci oxunuşda müzakirə edildiyini, sənədlə bağlı deputatların fikirlərini və qeydlərini səsləndirdiyini söyləyib.

Sonra energetika naziri Pərviz Şahbazov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O, hazırda qlobal səviyyədə energetika sistemində transformasiya proseslərinin getdiyini, dünya ölkələrində enerji keçidi proseslərinin həyata keçirildiyini, müasir çağırışlara cavab verən inkişaf modellərinin tətbiq edildiyini deyib. Qeyd edib ki, bu amilləri nəzərə alaraq, Prezidentin imzaladığı fərman və sərəncamlarda ölkəmizin energetika sistemində islahatların növbəti mərhələsi ilə bağlı konkret vəzifələr irəli sürülüb.

Bildirilib ki, dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması və təchizatı fəaliyyətinin hüquqi və idarəçilik cəhətdən ayrılması, müstəqil təchizat subyektlərinin təşviqi, zəruri tənzimləyici mühitin formalaşdırılması ilə bazar prinsiplərinin tətbiqi nəzərdə tutulub. Burada məqsəd vətəndaşların, habelə iqtisadiyyatın əlçatan, etibarlı, keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsindən ibarətdir.

Nazir təqdim edilmiş yeni "Elektroenergetika haqqında" qanun layihəsinin bu sahədə islahatların növbəti mərhələsi üçün hüquqi mexanizm formalaşdıracağını söyləyib. Qeyd edib ki, layihə hazırlanarkən beynəlxalq təcrübə, ölkədə bazar iqtisadiyyatının mövcud inkişaf səviyyəsi və perspektiv inkişaf istiqamətləri nəzərə alınıb. O, ölkə iqtisadiyyatının və əhalinin elektrik enerjisi ilə dayanıqlı və etibarlı təminatı üçün bu sahədə hüquqi mexanizmin xüsusi əhəmiyyətindən danışıb.

Qanun layihəsi ətrafında aparılan müzakirələrdə parlamentin komitə sədrləri Qənirə Paşayeva, Tahir Mirkişili, deputatlar Vahid Əhmədov, Vüqar Bayramov, Asim Mollazadə, Elnur Allahverdiyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə, Qüdrət Həsənquliyev, Elman Nəsirov, Razi Nurullayev, Müşfiq Məmmədli, Arzu Nağıyev çıxış edərək öz fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Deputatlar sənədi energetika sistemində islahatların həyata keçirilməsində mühüm addım kimi dəyərləndiriblər. Bildirilib ki, layihə ölkədə elektroenergetika sahəsinin inkişafına, rəqabət mühitinin formalaşmasına, özəl investisiyaların qoyuluşuna münbit şərait yaradacaq, bu sahədə səmərəliliyin, məhsul və xidmətlərin keyfiyyətinin artırılmasına, istehlakçıların mənafelərinin qorunmasına xidmət edəcək.

Energetika naziri Pərviz Şahbazov, parlamentin komitə sədri Sadiq Qurbanov, Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, səsləndirdikləri sualları ətraflı cavablandırıblar.

Müzakirələrin yekununda "Elektroenergetika haqqında" qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi (ikinci oxunuş), "Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi (ikinci oxunuş), "Su təchizatı və tullantı suları haqqında" qanunda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrinə baxılıb və bu sənədlər də ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Azərbaycan parlamenti İranı təxribatçı hərəkətlərdən çəkinməyə çağırdı





Aprelin 7-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 20 məsələ daxil edilib. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı barədədir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, aprelin 5-də İran parlamentində Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil olunub, saxta və uydurma ittihamlar üzərində qurulan bir bəyanat qəbul edilib. Təəssüf ki, Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış, xalqımızın əsrlərboyu yaratdığı sərvətləri vəhşicəsinə talan etmiş Ermənistana bir dəfə də etiraz etməyən, hətta ona müxtəlif vasitələrlə dəstək verən İran bu gün Azərbaycanın İsrail Dövlətində səfirliyinin açılmasından narahat olur.

Hamı bilməlidir ki, Azərbaycan müstəqil dövlətdir və hansı ölkə ilə necə münasibətlər qurması onun öz daxili işidir. Azərbaycanın suveren hüquqlarına qarışmağa heç kəsin ixtiyarı yoxdur.

Biz İran parlamenti tərəfindən ölkəmizə qarşı irəli sürülmüş əsassız ittihamları qətiyyətlə rədd edirik. İran parlamentini Azərbaycana qarşı bu cür təxribatlara son qoymağa və ikitərəfli münasibətlərə xələl gətirə bilən hərəkətlərdən çəkinməyə çağırırıq.

Milli Məclisin Sədri bildirib ki, bu gün bəzi ölkələrdə müəyyən qüvvələr Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi, tarixi ədalətin bərpa olunması ilə heç cür barışa bilmirlər. Onlar ölkəmizə böhtanlar atır, bölgədə münaqişəni yenidən alovlandırmağa, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılması səylərini pozmağa çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri həmin qüvvələrə ən yaxşı cavabdır. Cənab Prezident demişdir: "Erməni havadarları, Ermənistanın işğalçılıq siyasətinə şərik olan ölkələr bizə qarşı informasiya müharibəsi elan ediblər.

...Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir".

Məsələ ətrafında müzakirələrdə Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Bəxtiyar Əliyev, Zahid Oruc, Musa Quliyev, Səməd Seyidov, deputatlar Azər Badamov, Nizami Cəfərov, Anar İsgəndərov, Etibar Əliyev, Elşən Musayev, Vüqar İskəndərov, Sabir Rüstəmxanlı, Hikmət Məmmədov, Fəzail Ağamalı çıxış ediblər.

İclasda məsələ ilə bağlı bəyanatın mətnini hazırlamaq üçün Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimlinin başçılığı ilə parlament komissiyası yaradılıb və komissiya öz işinə başlayıb.

Çıxış edən deputatlar İranın ölkəmizə qarşı təxribatçı və düşmənçilik hərəkətlərinin davamlı şəkil almasının qonşuluq münasibətlərinə sarsıdıcı zərbə vurduğunu, deputat Fazil Mustafaya qarşı terror aktı törədənlərin İranla əlaqələrinin, bundan bir az əvvəl Tehrandakı səfirliyimizə xain hücumun, İran rəsmilərinin ölkəmizə qarşı söylədikləri arasıkəsilməz hədyanların, İranın ölkəmizin Ermənistanla münaqişənin həllində, xüsusilə Zəngəzur dəhlizi barəsində tutduğu destruktiv mövqeyinin bizi dövlətlərarası münasibətlərimizə yenidən baxmağa məcbur etdiyini bildiriblər. Millət vəkilləri İran parlamentinin Azərbaycanın İsraildə səfirlik açmasına etiraz bəyanatı qəbul etməsinin və özünü dünya müsəlmanlarının hüquqlarının qoruyucusu elan etməsinin isə heç bir siyasi və diplomatik etikaya sığmadığını söyləyiblər.

Hər hansı bir dövlətdə, o cümlədən İsraildə səfirlik açmaq Azərbaycan dövlətinin hüququdur. İran parlamentinin bu məsələni müzakirə etməyə beynəlxalq hüquq və mənəvi baxımından haqqı yoxdur. Bildirilib ki, İran parlamentinin İsrail Dövlətində səfirliyimizin açılmasına etiraz edən qətnamə qəbul etməsi daxili işlərimizə qarışmaq cəhdidir və bu, Azərbaycan xalqı tərəfindən qətiyyətlə rədd edilir və pislənilir.

Qeyd olunub ki, Azərbaycan güclü dövlətdir, onun müdafiəsi etibarlı əllərdədir, ölkədə dövlət maraqları ətrafında sarsılmaz milli birlik mövcuddur. Heç bir düşmən qüvvə ölkəmizin suverenliyini və təhlükəsizliyini təhdid edə, bizim iradəmizi sarsıda bilməz.

Müzakirələrin sonunda deputat Kamran Bayramov İran parlamentinin İsraildə Azərbaycan səfirliyinin açılmasını pisləyən bəyanatın mətnini diqqətə çatdırıb.

Sənəd səsə qoyularaq qəbul edilib *(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).*

Sonra gündəlikdəki qanun layihələrini müzakirəyə çıxaran parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti dörd məsələ ikinci oxunuşda olan qanun layihələridir. Spiker bildirib ki, gündəliyin ikinci məsələsi "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu qeyd edən spiker belə bir mühüm tarixi məqamda Ulu Öndərin yubileyinə həsr olunan medalın təsis edilməsini onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən qiymətin yeni bir ifadəsi kimi dəyərləndirib və məsələ ilə bağlı məlumat vermək üçün Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə söz verib.

Əli Hüseynli qanun layihəsinin birinci oxunuşunda deputatların Prezident İlham Əliyevin "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təsis edilməsi təşəbbüsünü alqışlarla qarşıladıqlarını, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsinə dəyərli bir töhfə kimi yüksək qiymətləndirdiklərini bildirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti iki məsələsi parlamentə cənab Prezidentin bir məktubu ilə daxil olub və mahiyyətcə də bir-biri ilə bağlıdır. Bunlar ikinci oxunuşda olan "Prokurorluq haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir. Spiker sənədlər haqqında məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadəyə verib.

Əminə Ağazadə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydasının dəyişdirilməklə yenidən təşkil olunması ilə əlaqədar hazırlanan qanun layihələri barədə birinci oxunuşda ətraflı məlumat verildiyini bildirib və məsələlərlə bağlı komitəyə hər hansı bir təklif daxil olmadığı üçün layihələrin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra spiker gündəliyin beşinci məsələsi olan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) müzakirəyə çıxarıb.

Qanun layihəsi barədə məlumat verən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədin birinci oxunuşunda deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrdə komitə sədri Siyavuş Novruzovun, deputatlar Vüqar Bayramovun, Nigar Arpadarainin, Fəzail Ağamalının çıxışlarından sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, gündəliyin qalan 15 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Növbəti dörd məsələ Prezident İlham Əliyevin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. Spiker təklif edib ki, bu 4 məsələnin (6-9-cu məsələlər) təqdimatları ayrı-ayrı, müzakirəsi birlikdə olsun. O bildirib ki, 6-cı və 7-ci məsələyə Regional məsələlər komitəsində baxılıb və məsələlərlə bağlı məlumat vermək üçün Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayevə söz verib. Bildirilib ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) mahiyyətcə eynidir. Belə ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, bələdiyyənin ərazisində daimi yaşayan və eyni zamanda ən azı beş il müddətində yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları tikinti obyektinin istismara hazırlığı barədə müvafiq icra hakimiyyəti orqanından müsbət rəy aldığı təqdirdə, həmin obyektin yerləşdiyi torpaq sahəsi fiziki və hüquqi şəxslərin mülkiyyətinə satıla və ya icarəsinə verilə bilər. Həmin şəxslər torpaq üzərindəki mülkiyyət və icarə hüquqlarını əldə etmək üçün açıq torpaq hərracları və ya müsabiqələrdə iştirak etmirlər.Təklif olunan dəyişiklikdəki yeni qayda humanizm prinsipinə əsaslanır, tikinti obyektinin yerləşdiyi torpaq üzərində mülkiyyət və icarə hüquqlarının daha asan formada əldə olunmasına hüquqi əsas verir.

"Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinin də eyni məzmunlu uyğunlaşdırma xarakteri daşıdığı qeyd olunub.

8-ci məsələ olan "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Bildirilib ki, qanun layihəsi qanunvericiliyin tələblərinə uyğun aparılmamış tikinti obyektləri üzərində hüquqların qeydiyyatı məqsədilə hazırlanıb. Belə ki, yarımçıq qalmış obyektlərin tikintisi zamanı bürokratik əngəllərin aradan qaldırılması məqsədilə prosedur qaydaları sadələşdirilir. Bundan sonra tikintisi yarımçıq qalan obyektlərin işinin başa çatdırılmasına görə iki sənəd tələb olunacaq. Bunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilmiş hallarda və qaydada tikinti obyektlərinə münasibətdə - tikinti obyektinin istismarına icazə və torpaq sahəsi üzərində mülkiyyət və ya icarə hüququnu təsdiq edən sənəddir.

İstismara hazırlığı barədə müsbət rəy verilmiş tikinti obyektlərinin yerləşdiyi torpaq sahələrinin fiziki və hüquqi şəxslərin mülkiyyətinə satılması və ya icarəsinə verilməsi halları və qaydası qanun qəbul olunduqdan sonra təsdiq ediləcək qaydalarla müəyyən olunacaq.

9-cu məsələ olan "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov məlumat verib. Bildirib ki, təklif olunan dəyişikliklər 2023-cü ilin may ayının 1-dək Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə riayət edilmədən inşa edilən, lakin etibarlılıq və təhlükəsizlik baxımından müvafiq tələblərə cavab verən bir çox tikinti obyektlərinin istismarına icazə verilməsini və müvafiq şəxslərin mülkiyyət hüququnun rəsmiləşdirilməsini mümkün edəcək.

Müzakirədə deputatlar Razi Nurullayev, Azay Quliyev, Müşfiq Cəfərov, Elşad Mirbəşiroğlu və Etibar Əliyev çıxış edərək sənədlərlə bağlı fikirlərini bildiriblər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker bildirib ki, növbəti altı məsələ Prezident İlham Əliyevin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Ona görə də onların təqdimatlarının ayrı-ayrı müzakirəsinin birlikdə keçirilməsi qərara alınıb. Milli Məclisin Sədri bildirib ki, 10-cu, 11-ci və 12-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və məsələlərlə bağlı məlumat vermək üçün komitənin üzvü Nurlan Həsənova söz verib.

Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (birinci oxunuş) təklif olunan dəyişikliklərin tikintiyə icazə icraatının optimallaşdırılmasına, bununla bağlı şəffaflıq və vətəndaş məmnunluğunun təmin edilməsinə, tikintiyə icazə icraatı çərçivəsində hazırlanan müvafiq sənədlərin elektronlaşdırılması səviyyəsinin yüksəldilməsinə xidmət etməsindən danışıb.

11-ci və 12-ci məsələlər olan İnzibati Xətalar və Cinayət məcəllələrində dəyişikliklər edilməsi haqqında qanun layihələrində isə şəhərsalma və tikinti qanunvericiliyinin pozulmasına görə yeni məsuliyyət növlərinin nəzərdə tutulduğu diqqətə çatdırılıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı müsbət rəyini diqqətə çatdırıb.

Gündəliyin 13-cü, 14-cü və 15-ci məsələləri - birinci oxunuşda olan "Elektroenergetika haqqında","Qaz təchizatı haqqında" və "Su təchizatı və tullantı suları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Diqqətə çatdırıb ki, adıçəkilən qanunlara eyni mahiyyətli dəyişikliklərin edilməsi nəzərdə tutulub. Həmin qanunların müvafiq maddələrinə təklif olunan əlavələrə görə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə, onların qaz qurğularının qazpaylayıcı şəbəkəyə, habelə su təchizatı və kanalizasiya şəbəkələrinə qoşulması qadağandır.

Qanun layihələrinin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlar Emin Hacıyev, Musa Qasımlı, Qüdrət Həsənquliyev çıxış ediblər.

Altı qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 16-cı məsələsi olan Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib. Bildirib ki, qanun layihəsinə təklif olunan dəyişikliyə əsasən, nikaha daxil olmaq istəyən tərəflərin tibbi müayinədən keçmələri barədə arayış elektron formada tərtib olunaraq tibb müəssisəsi tərəfindən Səhiyyə Nazirliyinin və Ədliyyə Nazirliyinin müvafiq informasiya sisteminə ötürüləcək.

Bundan əlavə, layihəyə əsasən, nikahın ləğvi, etibarsız sayılması, habelə adın, ata adının və soyadın dəyişdirilməsi barədə məhkəmə qətnaməsindən çıxarış dərhal "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə Ədliyyə Nazirliyinin müvafiq informasiya sisteminə ötürüləcək.

Vurğulanıb ki, qanun layihəsinin qəbulu sənədlərin təqdim edilməsi ilə bağlı problemlərin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, bu əsasda vətəndaş məmnunluğunun artırılmasına səbəb olacaq.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker bildirib ki, növbəti məsələ olan "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və məsələ ilə bağlı məlumat vermək üçün komitənin üzvü Nurlan Həsənova söz verib. O diqqətə çatdırıb ki, təklif edilən dəyişikliyə əsasən, notariat hərəkətlərinin aparılması üçün notariusların kommersiya hüquqi şəxslərinin təsisçiləri, onların nizamnamə kapitalındakı payları barədə məlumatlarla yanaşı, həm də kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatları da elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə etmək hüququ müəyyən edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

18-ci məsələni -"Notariat haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) də Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təqdim edib. O bildirib ki, dəyişiklik əvvəlki qanun layihəsində olduğu kimi, notariusların kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatların elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə etmək hüququnu təsbit edir. Əlavə olaraq, qanun layihəsində notariusun tərcüməçi tərəfindən elektron imza ilə təsdiq edilmiş tərcümənin düzgünlüyünü elektron qaydada təsdiq edə bilməsi müəyyən olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker bildirib ki, 19-cu məsələyə - Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, "Notariat haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb.

Məsələ ilə bağlı bildirilib ki, etibarnaməni təsdiqləmək hüququ notariuslarla yanaşı, bir sıra vəzifəli şəxslərə də həvalə edilmişdir. Təklif olunan dəyişikliyə əsasən, sosial xidmət müəssisəsinin müdiriyyəti tərəfindən həmin sosial xidmət müəssisəsinə yerləşdirilən şəxslərə verilə biləcək etibarnamələrin dairəsi məhdudlaşdırılır.

Mülki Məcəlləyə təklif olunan dəyişikliyə əsasən isə, sosial xidmət müəssisələrinin təminatında olan və heç bir vərəsəsi olmayan şəxslərin əmlakının sosial xidmət müəssisələrinin mülkiyyətinə keçməsi məsələsi tənzimlənir.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərlik etdikləri komitələrin sənədlə bağlı müsbət rəyləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılma məqsədilə hazırlanıb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ ilə bağlı komitəsinin müsbət rəyini səsləndirəndən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Milli Məclis İran parlamentinə cavab bəyanatı qəbul edib

Milli Məclis İran parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qərəzli sənədlə bağlı bəyanat layihəsini hazırlayıb.

Bəyanat parlamentin aprelin 7-də keçirilən plenar iclasında qəbul edilib.

AZƏRTAC bəyanatı təqdim edir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması ilə bağlı İran İslam Respublikası parlamentinin aprelin 5-də bəyanat qəbul etməsini Azərbaycan dövlətinin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndirir. Azərbaycan Respublikasının suverenliyinə və müstəqilliyinə açıq hörmətsizliyin ifadəsi olan bu bəyanat İran tərəfinin ölkəmizə qarşı həyata keçirdiyi növbəti siyasi təxribatdır.

Təəssüf ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanmasına, şəhər və kəndlərimizin viran qoyulmasına, milli sərvətlərimizin talan edilməsinə, tarix, mədəniyyət və din abidələrimizin, o cümlədən məscidlərimizin dağıdılmasına göz yuman, hətta təcavüzkara bir çox əməllərində dəstək verən İran İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımız düşmən əsarətindən azad edildikdən sonra Azərbaycana qarşı açıq fəaliyyətə keçmişdir. Belə görünür ki, İran silahlı qüvvələrinin Azərbaycan sərhədləri yaxınlığında müntəzəm hərbi təlimlər keçirməsi, Tehrandakı Azərbaycanın səfirliyinə qarşı terror aktı törədilməsi, on minlərlə azərbaycanlının zorla qovulduğu Ermənistanın Qafan şəhərində İran konsulluğunun açılması, Təbrizdə Ermənistanın baş konsulluğunun açılmasına razılıq verilməsi, Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə mane olmaq cəhdləri və digər bəd niyyətli hərəkətlər eyni bir zəncirin həlqələridir. Xüsusən İranda Azərbaycan dövləti əleyhinə aparılan təhdid, böhtan və qarayaxma kampaniyasının son dövrdə geniş vüsət alması, İran xüsusi xidmət orqanlarının ölkəmizdə yaratdıqları casus şəbəkəsinin ifşa edilməsi, Azərbaycanda yalan təbliğatla aldadılmış insanların radikal dini ideyalar ətrafında birləşdirilməsi cəhdləri ciddi narahatlıq doğurur.

Azərbaycan Milli Məclisi bildirir ki, ölkəmizin İsrail Dövlətində səfirliyinin açılması müstəqil dövlət kimi onun suveren hüququdur və bununla əlaqədar Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlar qəbuledilməzdir. Qeyd olunmalıdır ki, İsraildə Türkiyə, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Bosniya və Herseqovina, Albaniya, Misir, İordaniya, Qazaxıstan, Özbəkistan, Mərakeş, Nigeriya, Çad, Kot-d'İvuar kimi müsəlman ölkələrinin diplomatik nümayəndəlikləri fəaliyyət göstərir. Bu ölkələrin heç biri İranın Azərbaycana qarşı göstərdiyi qeyri-adekvat, qərəzli və radikal münasibətin şahidi olmayıb.

Azərbaycan xarici siyasət kursuna uyğun olaraq, Fələstin Dövlətində də Nümayəndəliyini açıb. Bu, iki ölkə və xalq arasında möhkəm dostluq və qardaşlıq münasibətlərinin təzahürüdür və bu münasibətlərə hər hansı üçüncü tərəfin, o cümlədən İranın müdaxilə etməsi yolverilməzdir. Azərbaycanla Fələstin arasında münasibətlər həmişə yüksələn xətlə inkişaf edib. Azərbaycan Fələstin məsələsi ilə bağlı daim həmrəylik göstərib, BMT-nin müvafiq qətnamə və qərarlarına müvafiq surətdə İsrail-Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini davamlı olaraq dəstəkləyib və bu mövqeyini Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirib.

Şərh edilənlər özünü müsəlmanların müdafiəçisi və hamisi kimi qələmə verən İranın, əslində, ikiüzlü siyasət yeritdiyini və məkrli siyasi maraqlarını təmin etmək üçün hər bir vasitədən istifadə etməyə hazır olduğunu göstərir. Milli Məclis İran tərəfinin Azərbaycana qarşı müntəzəm xarakter alan təxribat əməllərini qətiyyətlə pisləyir və rədd edir, ölkəmizi hədəf alan qərəzli fəaliyyətdən əl çəkməsini tələb edir.



## Zərifə Əliyeva - 100

# Görkəmli alim, mərhəmətli

## Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə

*Əvvəli 1-ci səh.*

"Bu, Zərifə Əliyevanın Azərbaycan tibb elmi qarşısındakı böyük məqsədlərindən biri idi. Zərifə xanım Əliyeva respublikamızı keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda da oftalmologiya üzrə elmi tədqiqat işləri aparılan nüfuzlu mərkəzə çevirmişdir. Zərifə xanımın göz həkimi kimi məşhurlaşması, bu sahədə məktəb yaratması ilə Azərbaycandan kənardakı tibb mərkəzlərinə xəstələrin axınının qarşısı alınmışdır. Zərifə xanımın bir məqsədi də ondan ibarət idi ki, o, rus həkimlərindən ibarət heyət yaradaraq, onları Azərbaycanın regionlarına aparır, müalicə işi təşkil edirdi. Zərifə xanım Əliyeva dünya tibb elminə yeni müalicə üsulları gətirmiş, bu istiqamətdə apardığı tədqiqatları təkcə nəzəri müddəalarla deyil, həm də o müddəaları formalaşdırmaqda ona əsas verən təcrübə ilə əlaqələndirməklə fərqlənmişdir", - deyə akademik İsa Həbibbəyli bildirib.

Qeyd edib ki, Zərifə xanım Əliyevanın Bakı Məişət Kondisionerləri Zavodu və Bakı Şin Zavodunda apardığı müşahidələr, yaratdığı tibbi müalicə və diaqnostika mərkəzi oftalmologiya sahəsində özünə qədər və ondan sonra aparılan tədqiqatlardan tam fərqli elmi nəticələrin əldə olunmasına öz töhfəsini verib. Məhz bunun nəticəsində ölkəmizdə 1960-cı illərə qədər geridə qalmış tibb sahələrindən biri sayılan oftalmologiya elmi artıq 1970-ci illərdə Moskva, Sankt-Peterburq kimi elm sahəsində əsas mərkəzlərlə bir sırada dayanmışdı və bir çox hallarda onlardan önə keçmişdi. Həmin illərdə dünyanın bir sıra ölkələrinin, həmçinin keçmiş SSRİ-nin görkəmli alimlərinin məqsədlərinin Bakıda keçirilən konfranslarda iştirak etmək, müzakirələr aparmaq, reallıqları görmək olduğunu deyən akademik İsa Həbibbəyli bunun birbaşa Zərifə Əliyevanın praktik və elmi fəaliyyəti ilə əlaqədar olduğunu söyləyib.

Həmçinin vurğulayıb ki, akademik A.Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın yaratdığı və rəhbərlik etdiyi göz xəstəliklərinin diaqnostikası və profilaktikasına həsr olunmuş laboratoriya Azərbaycanda göz xəstəlikləri elminin hüdudlarını Səhiyyə Nazirliyinin dairəsində genişləndirərək akademik mühitə daşınmasında ən yeganə nümunədir.

"Zərifə xanım Əliyeva həm də ölkəmizdə böyük ictimai xadim kimi qəbul olunmuşdur. Zərifə xanımın obrazını canlandırarkən onun sədaqətli olması mütləq ön sırada gəlir. O, Əziz Əliyevin ocağında qazandığı sədaqət andını Heydər Əliyev kimi görkəmli dövlət xadiminin sədaqətli yoldaşı olmaqla, bütün dünyanın gözü qarşısında isbat etmişdir. Zərifə xanım Əliyevanın çoxcəhətli fəaliyyəti ölkəmizdə hər zaman yüksək qiymətləndirilmişdir. O, Əməkdar elm xadimi adına, "Qırmızı əmək bayrağı" ordeninə layiq görülmüş, o zaman üçün əlçatmaz sayılan "Averbax" mükafatının Azərbaycana gətirilməsinin mümkünlüyünü sübut etmişdir. Milli Oftalmologiya Mərkəzi Zərifə xanım Əliyevanın adını daşıyaraq ölkəmizin nüfuzlu tibb mərkəzlərindən biri kimi inkişaf etmişdir. Akademiyada Zərifə xanımın adına mükafat təsis olunmuşdur. Bakıda məktəb-lisey Zərifə xanımın adını daşıyır. Ən başlıcası isə Zərifə xanım Əliyeva Heydər Əliyev kimi görkəmli siyasi xadimin həyat yoldaşı, XXI əsrdə Azərbaycanın zəfər tarixinə adını yazdırmış Prezident İlham Əliyevin anasıdır", - deyə AMEA rəhbəri bildirib.

***Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman ƏMİRASLANOV** ölkəmizdə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş silsilə tədbirlərin keçirildiyini, tədbirin isə tamamilə yeni formatda təqdim olunduğunu söylədi. Tədbirin "Azərbaycan" qəzeti, AMEA və Milli Məclisin Səhiyyə Komitəsinin birgə təşkilatçılığı ilə keçirildiyini qeyd edən akademik əlavə edib ki, belə bir mötəbər tədbirin ölkəmizin nüfuzlu əsas mətbu orqanı olan "Azərbaycan" qəzetində geniş işıqlandırılması böyük əhəmiyyət kəsb edir.*

- Hər bir xalq öz şəxsiyyətləri ilə ucalır. Onların ömür nümunələri böyük ideallara aydın istiqamət verir. Məhz bu keyfiyyətlər, insanlara və insanlığa fayda gətirən əməllər həmin şəxsiyyətləri zamanın fövqünə qaldırır, əbədi abidələrini ucaldır. Xalqımızın belə əbədiyaşar şəxsiyyətlərindən biri də zəmanəsinin görkəmli oftalmoloq alimi, akademik Zərifə Əziz qızı Əliyevadır.

Mənalı ömür yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı ilə mənəviyyat, kamillik, müdriklik örnəyinə çevrilmiş Zərifə xanım Əliyeva bu gün də milyonlarla insanın qəlbində yaşayır, adı daim dərin ehtiramla, rəğbətlə anılır. O, tibbin mühüm istiqamətlərindən olan oftalmologiya sahəsində uzun illər dəyərli tədqiqatlar aparmış, elmə sanballı töhfələri, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti ilə yüksək zirvələri fəth etmişdir.

Zərifə xanım 1923-cü ilin 28 aprelində Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Sonralar ailə Əziz müəllimin işi ilə əlaqədar Bakıya köçüb. Məktəbin son siniflərində Zərifə xanım artıq gələcək peşə seçimini müəyyən etmişdi. O da atası Əziz Əliyev kimi həkim olmaqda qərarlı idi. Bu bir tərəfdən atasının sənətinə vurğunluğundan irəli gəlirdi, digər tərəfdən də həkimliyin insan həyatı üçün nə qədər vacib olmasından, insanların bu müqəddəs peşə sahiblərinə böyük ehtiyacını duyub hiss etməsindən qaynaqlanırdı.

1941-1942-ci illər ən ağır, ən məşəqqətli dövr idi. II Dünya müharibəsi yenicə başlanmışdı. Bakıdakı bir çox binaları hospitallara çevirmişdilər. Zərifə xanımın yaşadıqları evin yaxınlığında da bir neçə hospital vardı. Buralar cəbhədən gətirilmiş yaralı hərbçilərlə dolub daşırdı. Onların müalicəsi üçün tibbi heyət çatışmırdı. Zərifə Əliyeva dərsdən sonra rəfiqələri ilə birgə bu hospitallara gəlir, həkimlərə, tibb bacılarına kömək etməyə çalışır, yaralı hərbçilərə öz ailələrinə məktub yazmaqda yardımçı olurdu.



Zərifə xanımın yaşının erkən çağlarından şəxsiyyət kimi formalaşmasında böyüdüyü ailənin də çox mühüm rolu vardı. Azərbaycanın o dövrdə yaşayıb-yaratmış bir çox tanınmış elm və mədəniyyət xadimləri Əziz Əliyevin yaxın dostları idilər, onun evində tez-tez qonaq olardılar. Məktəbdəki yüksək təhsildən əlavə bu evdə mövcud olan sağlam düşüncə mühiti, aparılan söhbətlər Əziz Əliyevin övladları üçün böyük bir universitet təhsilinə bərabər idi. Bu mənada həkimlik sənəti erkən yaşlarından Zərifə xanım üçün tale seçiminə çevrilmişdi.

Zərifə xanım Əliyeva 1942-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldu. O, fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə ona dərs deyən müəllimlərin də, tələbə yoldaşlarının da dərin rəğbətini qazanmışdı. İnstitutda təşkil olunan tələbə-elmi toplantılarında məruzələrlə çıxışlar edir, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq tanınmış alimlərlə fikir mübadiləsi aparırdı.

Zərifə Əliyevanın özünə ixtisas kimi məhz göz həkimliyini seçməsi də təsadüfi deyildi. Onda bütün dünyada və Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Problemin miqyası haqqında təsəvvür yaratmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının həmin dövr üçün bir hesabatına diqqət yetirək: hesabatda bütün dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində 80 milyondan çox adamın korluğa düçar olduğu bildirilirdi.

Bu xəstəlik Azərbaycanın bölgələrində xüsusilə tüğyan edirdi. Görmə orqanını sıradan çıxaran, bəzən hətta insanların tam korluğuna səbəb olan bu infeksion xəstəliyə qarşı təsirli vasitələr lazımi səviyyədə deyildi. Belə bir zamanda Zərifə xanım Əliyeva məhz oftalmologiyanı seçdi.

1947-ci ildə gənc həkim Azərbaycan Tibb İnstitutunda təhsilini başa vurub Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçməyə getdi. Buradakı iki illik kurs onun üçün böyük bir məktəb oldu. Zərifə xanım ixtisasına daha mükəmməl yiyələndi. 1949-cu ildə Vətənə döndü. Həmin ildən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə isə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlara da başladı. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr etdi. O illərdə gənc həkim bu xəstəliyə qarşı mübarizə aparan həmkarları sırasında traxoma xəstəliyinə qarşı həyata keçirilən müalicəvi və profilaktik tədbirlərin ön cərgəsində idi. Konkret müalicə təcrübəsindən əlavə, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə işləri aparırdı. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib hazırlamaq da ciddi tələbata çevrilmişdi. Bu zərurəti görən Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirirdi. Əsl vətəndaş mövqeyində dayanaraq ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirirdi. İşin çətinliyinə, məsuliyyətinə baxmayaraq, tezliklə bu sahədə böyük nəticələr əldə etdi. Bacarıqlı tədqiqatçı traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən "Sintomisin"dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdu.

Zərifə Əliyeva apardığı elmi tədqiqatların nəticələrini 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi aldı. Onun təklif etdiyi müalicə metodunun tezliklə bütün respublikada tətbiqinə başlandı. Beləliklə, bu xəstəliyə qarşı mübarizədə ciddi dönüş əldə olundu. Bu baxımdan, dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

Namizədlik dissertasiyasının müdafiəsindən sonra o, 1960-cı ildən 1967-ci ilədək Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı. Bu illərdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. Bir sözlə, fəaliyyəti təkcə klinikada qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını əhatə edirdi. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır, elmi tədqiqatları üzərində çalışırdı. Zərifə xanım xüsusilə qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə etmişdi.

1967-ci ildə oftalmoloq alim Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət alır. 1968-ci ildən o, sistemli şəkildə həmin dövrə qədər çox az tədqiq olunmuş mövzu - görmə orqanının patologiyası məsələləri ilə məşğul olmağa başlayır. Peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemi bütün ömrü boyu bu fədakar alimin maraq dairəsində idi. Zərifə xanım yod-sənaye müəssisələrində, neft-kimya zavodlarında çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirməyə başlayır.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Bununla da genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Alimin çoxillik elmi araşdırmalarının nəticəsi olaraq kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edir. O, öz tədqiqatı zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insan üzərində müşahidələr aparmış, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanlarına mənfi təsirini elmi dəlillərlə sübuta yetirmişdi. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir.

Zərifə xanımın elmi araşdırmaları əmək müəssisələrinin ekologiyası məsələsini gündəmə gətirir və günümüz üçün də son dərəcə aktualdır. Elmi-tədqiqat işlərinə paralel olaraq Zərifə Əliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışmışdır. Həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Onun təkmilləşmə kursu keçən həkimlərə oxuduğu mühazirələrin, apardığı praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm istiqamətlər təşkil edirdi.

Bu illərdə Zərifə xanım praktik həkimlik fəaliyyətindən də bir an olsun kənarda qalmırdı: müntəzəm şəkildə cərrahiyyə əməliyyatları aparır, xəstələrin müalicə və müayinəsi ilə məşğul olurdu. Görkəmli alim həm də əsl elm təşkilatçısı idi. O, ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil etmişdi.

Zərifə xanım oftalmologiyanın qlobal problemlərinin elmi həlli yolunda bir sıra konkret təşəbbüslərlə çıxış etmiş, 1977-ci ildə onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəlmiş, Bakıda yüksək səviyyədə təşkil olunmuş plenum ümumən keçmiş ittifaqda böyük maraqla qarşılanmışdır. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü də bəyənmişdir. Zərifə xanımın elmi nailiyyətlərinin bir çoxu Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu ilə bağlıdır. Çünki onun təklif etdiyi laboratoriya 1979-cu ildə burada yaradılmışdı. Bu laboratoriya Azərbaycan oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi sayılırdı. İndi də həmin məktəbin yetirmələri Zərifə xanımın elmi ənənələrini davam və inkişaf etdirirlər. Laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri Zavodu idi. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılırdı. Bu mənada, Zərifə xanım Əliyeva alimlik istedadı ilə həkimlik bacarığını mahir şəkildə özündə birləşdirmişdi. Akademik həm görmə patologiyasının müalicə metodlarını təkmilləşdirmiş, həm də özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müalicə üsullarının müvəffəqiyyətlə tətbiqinə başlamışdı.

Akademik Zərifə Əliyeva böyük elmi məktəb yaratmış alimlərdən idi. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir. Gənc ixtisaslı həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Gözyaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və digər əsərləri Zərifə xanım Əliyevanın tibb elminə sanballı töhfələridir. Alim gözyaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Gözyaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının banisinə çevrilmişdir.

Zərifə xanım tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə də diqqət yönəltmişdir. Onun bu mövzuda iki monoqrafiyası çapdan çıxmışdır. Bunlar "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" monoqrafiyalarıdır. Onu da xüsusi qeyd edək ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitablar məhz akademik Zərifə Əliyevaya məxsusdur.

1980-ci ildə Zərifə Əliyevanın "Şin istehsalında gözün peşə patologiyası", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" adlı üç monoqrafiyası çapdan çıxmışdır. Alimin daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini cəlb etmişdir. Alim müasir dövrdə də hər bir oftalmoloqun stolüstü kitabı olan "Terapevtik oftalmologiya" əsərinin müəlliflərindən biridir.

Həkimlik etikası Zərifə xanım Əliyevanı daim maraqlandıran əsas məsələlərdən idi. Çünki o, özü həkimlik sənətini bu peşənin yüksək etikası işığında sevmişdi. Onun üçün əsl həkimlik meyarı atası Əziz Əliyevin bütöv şəxsiyyəti idi. Uşaqkən ilk gördüyü, insanların sağlamlığı, milli səhiyyəmizin inkişafı üçün hər cür fədakarlığa qatlaşan həkimlər idi. Zərifə xanım həkimliyi bu insanların nurlu simasında təsəvvür edirdi və özü də həkimlik etikasını uca tuturdu. İnsan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını bəşəri humanizm kimi səciyyələndirirdi. O, belə bir ali dəyəri gənc həkimlərə də ötürməyə çalışırdı. Onların mənəvi tərbiyəsi, həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli üçün əməyini əsirgəmirdi. Zərifə xanımın bir çox məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdu. Alimin "Yüksək etimad" kitabı bu gün də "Hippokrat andı"na sadiq qalan, özünü əsl tibb işçisi kimi, yetişdirmək istəyən həkimlərin stolüstü kitabıdır. Zərifə xanım bu kitabında həkimlə xəstənin birbaşa əlaqəsinin müalicənin əhəmiyyətini yüksəltdiyini, xəstəyə ümid verdiyini, orqanizmin xəstəliyə qarşı müqavimətini artırdığını, bəzən dava-dərmandan da güclü təsir göstərdiyini yazır.



# Zərifə Əliyeva - 100

# insan, müqəddəs ana

## komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı





Alim kitabında həkim və xəstənin qarşılıqlı münasibətlərinin başlıca qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Akademik Zərifə Əliyeva həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi insanı sağaltmaqla onu öz məninə qaytarmaq idi. Bu baxımdan, alim hesab edirdi ki, tibb elminin fəlsəfəsini dərk etmək üçün, ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur.

Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini idi. Bu sahədə fədakarcasına çalışırdı. Bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirir, dəyərli çıxışlar, məruzələr edir, dünya xalqlarını hər çıxışında sülhə, əmin-amanlığa səsləyirdi.

O, respublika "Bilik" cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi maarifçilərimizdən gələn ənənələri də uğurla davam etdirirdi.

Zərifə xanım Əliyevanın tibb elminin inkişafı və pedaqoji kadrların hazırlanması sahəsindəki xidmətləri daim yüksək qiymətləndirilmişdir. 1980-ci ildə bu xidmətləri nəzərə alınaraq ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işləri, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Onu da qeyd edək ki, Zərifə xanım keçmiş SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. 1983-cü ildə isə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Həyatın, taleyin ona bəxş etdiyi ən böyük mükafat isə Zərifə Əliyevanın malik olduğu və elmi-ictimai işlərinin gərginliyinə rəğmən hər zaman qoruduğu qadın incəliyi və zərifliyi idi. Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı missiyasını da uğurla yerinə yetirirdi. O, Ümummilli Lider Heydər Əliyevin ən sadiq silahdaşı olmuşdur. Zərifə xanım Əliyeva Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirmişdi. Bu gün Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş dövlət rəhbərimiz cənab İlham Əliyevə bu torpağa, bu Vətənə tükənməz sevgini aşılamış dəyərli anadır.

Akademik Zərifə xanım Əliyeva ilə bağlı düşüncələrdən bir həqiqəti dərk edirsən ki, ömrünü böyük mənəvi ideallara həsr etmiş şəxsiyyətlər heç zaman unudulmur. O ideallar yaşadıqca, var olduqca Zərifə xanım kimi şəxsiyyətlər də yaşayır.

***2023-cü ilin xalqımız üçün əhəmiyyətli dövr olduğunu qeyd edən səhiyyə nazirinin müavini Nadir ZEYNALOV** vurğuladı ki, bu il tanınmış oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə bərabər, onun ömür-gün yoldaşı, dahi şəxsiyyət, görkəmli siyasi xadim, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də 100 illik yubileyi təntənə ilə qeyd olunur.*

Akademikin şəxsi keyfiyyətlərindən, humanistliyi ilə seçilən peşəsi haqqında ətraflı bəhs edən Nadir Zeynalov Zərifə Əliyevanın oftalmologiya sahəsində həm praktik həkim kimi çalışdığını, həm də uzun illər ərzində elmi tədqiqatlar apardığını, yaşadığı dövrdə respublikamız üçün real problem olan gözün traxoma xəstəliyi ilə yaxından maraqlandığını, öz araşdırmalarını bu problemin həllinə yönəltdiyini bildirdi. Traxoma xəstəliyi gözlərin infeksion xlomidi törəyicisi tərəfindən yaranan bir xəstəlikdir ki, müalicə olunmasa, tam korluğa gətirə bilər və keçən əsrin ortalarında bu, Azərbaycanda ciddi bir problem idi. Zərifə Əliyevanın tədqiqatları nəticəsində traxoma xəstəliyinin müalicəsində yeni bir üsul meydana gəldi, tədricən bu xəstəliyin ölkəmizdə yayılmasının qarşısı alındı.

Ötən əsrin 60-70-ci illərində keçmiş SSRİ məkanında sənayenin, o cümlədən kimya sənayesinin sürətli inkişafının iqtisadi artıma səbəb olması ilə yanaşı, insan sağlamlığına mənfi təsirlər göstərdiyini də qeyd edən Nadir Zeynalov akademik Zərifə Əliyevanın göz xəstəliklərinin peşə amili ilə bağlı məsələ ilə ciddi məşğul olduğunu, həm praktik, həm elmi, həm də təşkilati baxımdan nizamlı bir sistem yaratdığını bildirdi: "Akademikin təşəbbüsü ilə müəssisələrdə tibb məntəqələri təşkil olunmuşdu ki, burada yaradılan peşə ilə bağlı göz xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicə sistemi keçmiş SSRİ respublikaları üçün bir nümunə olmuşdur".

Nazir müavini qeyd etdi ki, 1982-ci ildə Zərifə Əliyevanın həmmüəlliflərlə birgə "İridodiaqnostikanın əsasları" kitabı işıq üzü görüb və burada alternativ təbabət, Şərq xalq təbabəti sahəsinə aid olan diaqnostika üsulları geniş şərh edilib. Akademikin tibbi etika və deontologiya sahəsində də araşdırmalar apardığını bildirən Nadir Zeynalov əlavə etdi ki, Zərifə xanım Əliyeva həkim və pasiyent, həkim və cəmiyyət arasında münasibətlərin necə olması ilə əlaqədar elmi əsərlər yaradıb.

Çıxışının sonunda görkəmli akademikin oftalmologiya sahəsi üzrə elmi məktəb yaratdığını deyən nazir müavini o məktəbin yetirmələrinin bu gün də respublikanın tibb sahəsində çalışdıqlarını vurğuladı.

*Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illik yubileyini yalnız elm ictimaiyyətinin deyil, bütün xalqımızın əlamətdar tarixi məqamı kimi səciyyələndirən **"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV** bildirdi ki, görkəmli alim ictimai sferada da fəal olmuş, respublikamızda qadın hərəkatının inkişafında yaxından iştirak etmişdir:*

- Adını respublikamızın elm tarixinə həkk etmiş görkəmli şəxsiyyətlərimizin arasında Zərifə Əliyevanın xüsusi yeri var. Çünki Zərifə xanım elmlə yanaşı, həm də ölkəmizin ictimai həyatında, qadın hərəkatının inkişafında iz qoymuş, böyük xidmətlər göstərmiş dəyərli insandır. Bu baxımdan biz Zərifə Əliyevanın həyat və yaradıcılığına hansı prizmadan müraciət etsək görərik ki, görkəmli alimimizin həyat amalı yalnız öz vətəninə və xalqına xidmətdən ibarət olub.

Haşiyə çıxaraq diqqətinizə çatdırmaq istərdim ki, bu günlərdə akademik Zərifə Əliyevanın "Yüksək əqidə" kitabını yenidən oxudum. Xatırladım ki, kitabdan parçalar "Azərbaycan" qəzetində dərc olunur. Bu əsərdə özünün ifadə etdiyi kimi, Zərifə Əliyevanın həyat amalını insanlara sevgi, onların xoşbəxt və sağlamlığı naminə fədakarlıqla pərvanəyə çevrilmək təşkil edib. Qızıl hərflərlə yazdığı ömür kitabının səhifələrini vərəqlədikcə də görürük ki, Zərifə xanım həyat yolunda yalnız nəcibliyi və mərhəməti özünün mayakı sanıb, insanların gözünə, könlünə nur çiləyərək neçə-neçə zülmət dünyalara ziya bəxş edib.

Burada dəyərli alimlərimiz Zərifə Əliyevanın alim kimi fəaliyyəti, tibb elminə töhfələri barədə ətraflı bəhs etdilər və növbəti çıxışlarda da bu barədə söz açılacaq. Mən onu qeyd etmək istərdim ki, Zərifə xanımın respublikamızın tibb elminə və oftalmologiyanın inkişafına töhfələri nə qədər misilsizdirsə, onun həkim peşəsinə vurğunluğu, bu peşəyə verdiyi dəyər və önəm bir o qədər qüdrətlidir. "Yüksək əqidə" əsərində həkimlik peşəsinin ucalığından bəhs edən Zərifə Əliyevanın vurğuladığı kimi, həkim xeyirxah olmalıdır. Həkimlərin "Hippokrat andı"nın da yüksək humanizm və insani dəyərlərə söykəndiyini yazan görkəmli alimimiz qeyd edir ki, xəstəlik fiziki cəhətdən nə qədər mürəkkəbdirsə, xəstənin ruhi aləmi də o qədər incə, nazik olur. Kömək etmək və onu qala kimi möhkəmlətmək üçün həkim ürəyinin atəşini və öz gücünü əsirgəməməlidir.

Zərifə Əliyevanın bir həkim kimi fəaliyyətində ali insani keyfiyyətlər hər zaman özünü qabarıq büruzə verib. "Yüksək əqidə" əsərindən də aydın olur ki, o, müraicət edən pasientlərinə sadəcə bir həkim kimi yanaşmayıb. Zərifə xanım onlara həm də dərdlərinə şərik çıxan insan kimi yanaşıb və xəstəliklə üzləşmiş şəxsləri müalicə etdikdə özünü dünyanın xoşbəxti sanıb. Pasientlərə yardımını əsirgəməyən, ümidsizliyə qapılmağa qoymayan Zərifə Əliyeva özünün yüksək mənəviyyatından irəli gələrək həmin insanların fiziki sağlamlıqlarının keşiyində möhkəm dayanıb, böyük ürək sahibi kimi onlara dayaq durub.

Zərifə xanım bunu həm peşə, həm də insanlıq vəzifəsi hesab edib. Əsərində Zərifə Əliyeva bu barədə yazır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla başbaşa qalanda o soruşur: Ağ xalat geyinməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasientin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".

Bəli, o, öz tibbi fəaliyyətini ilk növbədə insan sağlamlığına həsr etmişdir. Amma onun fəaliyyətində diqqəti çəkən bir nüans da var ki, Zərifə Əliyeva öz işini yalnız xəstəxanada görməklə kifayətlənmirdi. Bu baxımdan həkimlik və elmi fəaliyyətini bilavasitə insan orqanizmi üçün zərərli olan sənaye müəssisələrində həyata keçirməsi isə Zərifə Əliyevanın yüksək mənəvi dünyasının təcəssümü idi. Belə müəssisələrdə yaratdığı laboratoriyalarda apardığı genişmiqyaslı təcrübi tədqiqatlar nəticəsində görkəmli alim, həm də zəhərli maddələrin görmə orqanına təsirlərini öyrənərək tibb elmində mühüm yeniliklərə imza atmışdır. Çıxışlarda da qeyd olunduğu kimi, təcrübələrinin, tədqiqatlarının nəticələri Zərifə xanımın doktorluq işinin əsasını təşkil etmişdir. Respublikamızda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə Əliyevanın adı ilə bağlıdır.

"Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamında da qeyd olunduğu kimi, alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülməsi isə bütün Azərbaycan elminin böyük uğuru idi. Zərifə Əliyeva həm də bu mükafata layiq görülən ilk qadındır.

Akademik Zərifə Əliyevanın tariximizdəki möhtəşəm izlərindən ən alisi məhz müasir Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyevin ən böyük çiyindaşı, ilham mənbəyi olmasıdır. 1969-cu ildə Heydər Əliyevin respublikamızın rəhbəri seçilməsi Zərifə Əliyevanın da həyatında yeni mərhələnin başlanması idi. Əlbəttə, ölkə rəhbərinin xanımı olmaq mühüm sosial status, eyni zamanda böyük məsuliyyət idi. Bu baxımdan böyük şəxsiyyət, əbədiyaşar Heydər Əliyevin ən etibarlı silahdaşı kimi Zərifə xanım bu məsuliyyətin də öhdəsindən layiqincə gəlmişdir. Zərifə Əliyeva haqqında xatirələri oxuyanda, foto və videoxronikaları izləyəndə görürük ki, o, heç vaxt xüsusi seçilməyə, fərqlənməyə çalışmamış, müxtəlif imtiyazlar qazanmaqdan uzaq olmuş, təvazökarlığını və sadəliyini qoruyub saxlamışdır. Bütün bunlar onun zəngin mənəvi dünyasının təcəssümüdür.

Zərifə Əliyeva bir azərbaycanlı xanımı kimi nümunəvi həyat yoldaşı olmaqla bərabər, qayğıkeş ana kimi də örnək idi. Bu baxımdan Zərifə Əliyevanın həyatdakı digər möhtəşəm imzası onun Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, millətimizə zəfər yaşadan cənab İlham Əliyevi bəxş etməsidir. Dövlətimizin başçısının daşıyıcısı olduğu yüksək keyfiyyətlər, milli dəyərlərimizə son dərəcə bağlılığı da öz mənbəyini Heydər Əliyev və Zərifə Əliyeva dünyasından götürür. Bu iki böyük və mənəvi baxımdan zəngin insanın təlim-tərbiyəsi başqa cür ola da bilməzdi.

Bir alim, həkim kimi Zərifə Əliyevanın fəaliyyəti çoxşaxəli olduğu üçün işi də az olmamışdır. Amma bütün bunlara baxmayaraq, ailə qayğısı və övladlarının təlim-tərbiyəsi məsələsi Zərifə Əliyeva üçün hər şeyin fövqündə dayanmışdır. Zərifə Əliyevanı yaxından tanıyanlar onu ailəsinə və övladlarına olduqca bağlı, eyni zamanda gərgin iş qrafikinin olmasına baxmayaraq, övladlarının tərbiyəsini xüsusi diqqət mərkəzində saxlayan fədakar ana kimi xatırlayırlar. O, xarakterindəki ən gözəl xüsusiyyətləri, insanlara qayğı ilə yanaşmağı və vətənə məhəbbət hissini övladlarına da ötürmüşdür. Sözsüz ki, möhtərəm Prezident İlham Əliyevin qazandığı bütün uğurlarda, bu gün dünyanın ehiram olunan siyasi liderləri ilə bir cərgədə dayanmasında, xalqımızın sevgisini qazanmasında Heydər Əliyevin və Zərifə xanımın təlim-tərbiyəsi əvəzolunmaz rol oynamışdır.

Bütün bunlara görə biz Zərifə Əliyevanı yalnız görkəmli alim, insanlara nur verən şəfqət mücəssəməsi kimi deyil, həm də mükəmməl ömür-gün yoldaşı, fədakar ana kimi anırıq. 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin Zərifə xanımla bağlı söylədiyi fikirlər, əslində, Azərbaycan qadınının ailədəki rolu barədə ən dolğun təəssürat formalaşdırır: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Zərifə Əliyeva həm də icitmai fəaliyyətlə məşğul olmuşdur. O, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. İctimai sferadakı fəallığının daha bir nümunəsi kimi Zərifə Əliyeva ötən əsrin 70-ci illərində respublikamızda qadın hərəkatının liderlərindən biri kimi diqqət çəkmişdir. Zərifə Əliyeva ictimai sferadakı uğurlarına respublikanın birinci şəxsinin həyat yoldaşı olduğuna görə nail olmamışdı. O, yüksək statuslara özünün elmi fəaliyyəti, zəngin mənəviyyatı ilə sahib olmuşdu. Alimlərin, yaradıcı insanların dostu olmaqla yanaşı, Zərifə Əliyeva öz xeyirxah əməlləri ilə həm də sıravi vətəndaşların himayədarı idi və bu gerçəklik heç vaxt diqqətdən qaçmayıb.

Bu gün biz həmin xeyirxahlığı Heydər Əliyev, Zərifə xanım ocağının gəlini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ayrı-ayrı nümunələrində görürük. Bütün bunlar göstərir ki, Zərifə Əliyevanın irsi yaşayır, xeyirxahlıq missiyası davam etdirilir. Zərifə Əliyeva kimi Mehriban Əliyeva da çoxşaxəli fəaliyyətini insanların rifahına yönəldir, köməyə ehtiyacı olanlara dayaq durur.

Cəmi 62 il yaşasa da, Zərifə Əliyeva şərəfli bir ömür sürmüş, öz elmi yaradıcılığı ilə adını Azərbaycan tibb elminə həkk etmişdir. Onun yaratdığı elmi irs isə bu gün də Azərbaycanı dünyada tanıdır, ölkəmizə uğurlar qazandırır. Ona görə Zərifə Əliyevanın əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulacaq, ehtiramla anılacaq.

*(Ardı var)*

***"AZƏRBAYCAN"***

# Şəhid ailələri üçün iftar süfrəsi təşkil edilib

Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev tərəfindən vətənpərvər ilahiyyatçı alim Hacı Şahin Həsənlinin xatirəsinə şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri üçün iftar süfrəsi təşkil edilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra şəhidlərimizin, qardaş Türkiyədə baş vermiş zəlzələ zamanı həlak olanların və Hacı Şahinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Milli Məclisin Sədr müavini Adil Əliyev tədbiri giriş sözü ilə açaraq Hacı Şahinin dəyərli ilahiyyatçı alim, dövlətini sevən, ölkəsinə bağlı, vətənpərvər şəxsiyyət olmasından bəhs edib. O, tariximizə qızıl hərflərlə yazılmış və Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad olunması üçün aparılmış Vətən müharibəsində Hacı Şahinin mütəmadi olaraq hərbi qulluqçularla görüşdüyünü, onların döyüş əhvali-ruhiyyəsinin yüksəldilməsində yaxından iştirak etdiyini qeyd edib. Şanlı Zəfərimizdən sonra Şuşa şəhərində ilk bayram namazının məhz Hacı Şahin tərəfindən qılındığını deyən sədr müavini, onun hər zaman şəhid ailələrinin və qazilərimizin yanında olduğunu, dövlətimizin güclənməsi, gənc nəslin tərbiyəsi, onun milli-mənəvi dəyərlərimizə, dövlətimizə və dövlətçilik ənənələrimizə bağlı nəsil kimi yetişməsinə böyük əmək sərf etdiyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən şəhid ailələrinin üzvləri övladlarının Vətən uğrunda şəhid olmasından qürur duyduqlarını bildiriblər və onların döyüş yolundan bəhs ediblər. Çıxış edənlər Hacı Şahinlə də bağlı xatirələrini bölüşüblər, onun mənəvi dəstəyini xüsusi qeyd ediblər.

*"Azərbaycan"*

# Peşəkar zabit kadrlarının hazırlanmasında komando hazırlığı mütləqdir




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə aprelin 7-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Komando Dağ Təlim Mərkəzini ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir mərkəzdə Heydər Əliyev adına Hərbi İnstitutun 4-cü kurs kursantlarının iştirak etdiyi "Komando başlanğıc kursu"nun gedişatı ilə tanış olub.

Məruzə edilib ki, çöl çıxışında kursa cəlb olunan heyətə yaşayış məntəqələrindəki döyüş şəhərciyində müasir döyüş üsulları, dağçılıq və digər fəaliyyətlər real döyüş şəraitinə uyğun məşq etdirilir. Keçirilən məşğələlərdə əsas diqqət hərbi qulluqçuların fərdi bacarıqlarının daha da yüksəldilməsi, döyüş vərdişlərinin təkmilləşdirilməsi, eləcə də liderlik keyfiyyətlərinin artırılmasına yönəldilir.

Məşğələləri izlədikdən sonra general-polkovnik Z.Həsənov şəxsi heyətlə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Müdafiə naziri qeyd edib ki, Ali Baş Komandanın göstərişinə uyğun olaraq Azərbaycan Ordusunda bütün sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də həyata keçirilən islahatlar davam etdirilir. Peşəkar zabit kadrlarının hazırlanmasında Türkiyə modelindən istifadə olunur və bu prosesin həyata keçirilməsində komando hazırlığı mütləqdir.

Hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə təlimlərdə müasir döyüş üsulları məşq etdirilir, Ordumuzun arsenalına yeni tələblərə cavab verən silah, hərbi texnika daxil edilir və hərbi qulluqçulara onların effektiv tətbiqi qaydaları öyrədilir.

General-polkovnik Z.Həsənov qeyd edib ki, Aprel döyüşləri, Günnüt əməliyyatı, Vətən müharibəsi və sonrakı əməliyyatlarda Azərbaycan Ordusu öz qüdrətini bütün dünyaya sübut etdi. Ordumuzun daha da qüdrətlənməsi və inkişaf etməsi istiqamətində görülən işlər hazırda da davam etdirilir. Nazir xüsusi vurğulayıb ki, bu gün bütün hərbi qulluqçularla yanaşı, hərbi institutda təhsil alan gələcəyin zabitləri də öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir.

Məşğələləri izlədikdən sonra mərkəzdə yeni istifadəyə verilən tibb məntəqəsinə gələn müdafiə nazirinə məruzə edilib ki, müasir tələblərə cavab verən məntəqədə hərbi qulluqçuların sağlamlıqlarının təmin olunması, onlara ilkin yardımın göstərilərək ehtiyac olduğu təqdirdə hospitala təxliyə edilməsi üçün lazımi şərait yaradılıb. Tibb məntəqəsində qəbul-diaqnostika otağı, palatalar, eləcə də inzibati otaqlar mövcuddur.

Daha sonra general-polkovnik Z.Həsənov çöl çıxışında olan kursantların səhra düşərgəsinə baxış keçirib. Düşərgədə şəxsi heyətin qalması, qidalanması və asudə vaxtının səmərəli təşkili üçün yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri kursa cəlb olunan heyətə keçirilən dərslərin daha dərindən öyrənilməsi və onların gələcəkdə əsl hərbi mütəxəssis kimi yetişməsi üçün öz tövsiyələrini verib.

Sonda general-polkovnik Z.Həsənov şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Azərbaycan-Qazaxıstan Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının yekunlarına dair Protokol imzalanıb



Bakıda Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl komissiyanın həmsədrləri, Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstan Baş nazirinin müavini - ticarət və inteqrasiya naziri Serik Jumanqarin arasında ikitərəfli görüş olub, iki ölkə arasında əməkdaşlığın mövcud vəziyyəti və yeni əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Komissiyanın iclasında Qazaxıstan və Azərbaycan arasında yüksək səviyyədə olan siyasi münasibətlərin ticari-iqtisadi tərəfdaşlığın inkişafı ilə möhkəmləndirilməsi istiqamətində atılan addımlar dəyərləndirilib.

Energetika naziri Pərviz Şahbazov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin siyasi iradələri sayəsində ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. İki ölkə arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamənin imzalanması bunun parlaq təzahürüdür. Bildirilib ki, 2022-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin həcmi 2021-ci illə müqayisədə 4,4 dəfə artaraq 598 milyon 400 min ABŞ dolları təşkil edib. Bu göstəricilərin 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqramın icrası ilə daha da yüksələcəyinə inam ifadə edilib.

Nazir energetika sahəsində əməkdaşlığın inkişafından danışarkən deyib: "Ötən il SOCAR və "KazMunayQaz" şirkətləri arasında ildə 1,5 milyon ton Qazaxıstan mənşəli neftin nəqlinə dair imzalanmış 5 illik müqavilə enerji əməkdaşlığımızda mühüm irəliləyişdir. Cari ilin martından Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə Qazaxıstanın "Tengiz" yatağından hasil edilən neftin nəqlinə başlanılıb. Aprel ayında BTC ilə 125 min ton Qazaxıstan neftinin nəqli planlaşdırılır".

İclasda hər iki ölkənin "yaşıl enerji"yə keçid sahəsində ciddi səylər göstərdiyi vurğulanaraq, bərpaolunan enerji və enerji səmərəliliyi kimi sahələrdə Qazaxıstan şirkətləri ilə əməkdaşlıq niyyətləri ifadə olunub. Həmçinin nəqliyyat-logistika əlaqələrinin inkişafı, Çindən, Mərkəzi Asiya ölkələrindən Avropaya və əks istiqamətdə yük axınları məqsədilə ölkələrimizin tranzit potensialının artırılması üçün birgə fəaliyyətin əhəmiyyətindən danışılıb.

Qazaxıstanın Baş nazirinin müavini - ticarət və inteqrasiya naziri Serik Jumanqarin isə çıxışında deyib: "Azərbaycan Qazaxıstanın Cənubi Qafqazda əsas və perspektivli ticarət-iqtisadi tərəfdaşıdır. Bu gün ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasında biz Qazaxıstan dəmir yolu maşınqayırmasının ixrac imkanlarını təqdim edirik. Bundan əlavə, biz Qazaxıstandan Azərbaycana 304 milyon ABŞ dollarından çox məbləğdə 100-dən çox növdə qeyri-xammal əmtəəsinin təchiz edilməsi üzərində işləyirik. Ölkələrimiz enerji, nəqliyyat, kənd təsərrüfatı mallarının ticarəti sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensiala malikdir. Biz mümkün olan çoxsaylı istiqamətlər üzrə qarşılıqlı faydalı və səmərəli əməkdaşlıq qurmağı hədəfləyirik və hər zaman yeni təkliflərə açığıq".

İclasda Hökumətlərarası Komissiyanın 18-ci iclasından sonra görülmüş işlər nəzərdən keçirilib, siyasi, ticarət-iqtisadi, energetika, nəqliyyat və logistika, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, media və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparılıb.

Sonda Azərbaycan-Qazaxıstan Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının yekunlarına dair Protokol imzalanıb. Komissiyanın 20-ci iclasının gələn il Qazaxıstanda keçirilməsi razılaşdırılıb.

# *Səttar MÖHBALIYEV:* "İranın Azərbaycanın daxili və xarici siyasətinə heç bir halda təsir etməyə gücü çatmaz"



"Azərbaycanın İsraildə səfirlik açmasına etiraz olaraq İran parlamentinin bəyanat qəbul etməsi qətiyyən başadüşülən deyil, siyasi və diplomatik etikaya uyğun gəlmir, dövlətlərin daxili işinə qarışmamaq prinsipinin bilavasitə kobud şəkildə pozulmasıdır. Azərbaycan tam müstəqil dövlətdir, hansı ölkələrlə münasibət qurur, əlaqələrini genişləndirir, səfirlik açır və s. onun öz qərarıdır. İran parlamentinin bu cür sərsəm bəyanat qəbul etməsi islam libası altında gizlənən, lakin daim müsəlmanları bu və ya digər formada hədəfə alan molla rejiminin əsl mahiyyətini ortaya qoyur. Təbii ki, İranda hakimiyyətdə olan qüvvələr, yəni fars-molla rejimi fəaliyyətində səmimi deyil, sözü ilə əməli bir araya sığmır. Özünü islam dövləti adlandırsa da, hər zaman islam düşmənlərinin yanında olub".

Bu fikirləri kütləvi informasiya vasitələrinə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, Azərbaycan daim İranla mehriban qonşuluq və dostluq münasibətlərinə üstünlük verib, lakin fars-molla rejiminin bizə qarşı sərgilədiyi mövqe birmənalı olmayıb: "Belə ki, hər zaman işğalçı Ermənistanı dəstəkləyib. Bu siyasətində İran, demək olar ki, "müsəlman müsəlmanın qardaşıdır" kəlamını heç yadına da salmayıb, işğalçı dövlətlə əlaqələrini bütün sahələrdə genişləndirib.

Sonra da utanmayaraq dünyada islam qardaşlığından və həmrəyliyindən söz açaraq daim saxtakarlıq edib. Tehrandakı səfirliyimizə təşkil edilən silahlı basqın, deputat həmkarımız Fazil Mustafaya qarşı törədilən terror hadisəsi bilavasitə fars rejiminin çirkin və xain əməlləridir. Elə hesab edirlər ki, belə şərəfsiz yollarla müstəqil Azərbaycana təsir göstərə biləcəklər. Amma bu, mumkün deyil".

"Azərbaycanın hüquq-mühafizə orqanları böyük peşəkarlıqla İran xüsusi xidmət orqanları ilə əlaqəyə girən terrorçuların aşkarlanması və məsuliyyətə cəlb edilməsi istiqamətində uğurlu əməliyyatlar həyata keçirir. Həbs olunanların danışıqlarından aydın görünür ki, onların niyyəti ölkəmizdə çaxnaşma yaratmaq, sabitliyi pozmaq, saxta dini dövlət qurmaq olub. Təbii ki, yanılırlar. Azərbaycan xalqı zəngin keçmişi olan, ağır sınaqlardan çıxmış müdrik bir xalqdır. Belə oyunlarla onu aldatmaq və qorxutmaq olmaz. Bu gün qüdrətli dövlətinin və onun rəhbərinin ətrafında dəmir yumruq kimi birləşən xalqımız daha xoşbəxt gələcəyə döğru inamla irəliləyir. Artıq qocalmış və çürümüş, müasir dünya ilə heç cür ayaqlaşa bilməyən köhnə bir rejimin Azərbaycanı təhdid etməyə gücü çatmaz", - AHİK sədri əlavə edib.

# Ombudsman Ağdamda tapılan məzarlıqla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət edib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ağdam rayonunun "Ergi düzü" adlanan ərazisində tapılan məzarlıqla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət edib.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə deyilir: "Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında həyata keçirilən geniş bərpa və quruculuq işləri əsnasında aparılan qazıntı və tikinti işləri zamanı erməni vandalizminin qurbanı olmuş insanların qətlə yetirilərək basdırıldığı kütləvi məzarlıqlar aşkar edilməkdədir.

Ağdam rayonunun "Ergi düzü" adlanan ərazidə aparılan qazıntı işləri zaman insan skeletinə bənzər sümüklərin tapılması işğal müddətində Ermənistanın törətmiş olduğu müharibə cinayətlərinin növbəti izlərini aşkara çıxarır.

Belə ki, bundan əvvəl də işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlarda aparılan araşdırmalar nəticəsində həmin qalıqların Birinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən əsir və girov götürülərək müxtəlif işgəncələrə məruz qaldıqdan sonra amansızcasına qətlə yetirilən azərbaycanlılara aid olduğuna dair çoxsaylı faktlar əldə edilib.

Dəfələrlə müraciət edilməsinə baxmayaraq, Ermənistan itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirmir, işarələnməmiş minaların və kütləvi məzarlıqların yerləşdiyi ərazilərin dəqiq xəritələrini Azərbaycan tərəfinə təqdim etmir və bununla da beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini kobud şəkildə pozur.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq bir daha dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistan tərəfindən itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirilməsi, işarələnməmiş minaların və kütləvi məzarlıqların dəqiq xəritələrinin ölkəmizə təhvil verilməsi ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməyə çağırıram".

# Azərbaycan-Qazaxıstan münasibətlərinə həsr olunmuş "dəyirmi masa" keçirilib

Aprelin 7-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Qazaxıstan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə Azərbaycan-Qazaxıstan Ekspert Şurasının ikinci iclasına həsr olunmuş hibrid formatında "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev çıxış edərək Ekspert Şurasının ötən ilin mayında təsis olunduğunu və qısa müddətdə artıq ikinci iclasının keçirildiyini bildirib. Qeyd edib ki, ikitərəfli əlaqələri təhlil etmək, həll olunmalı məsələlərdən danışmaq və ümumilikdə dinamika barədə müzakirə aparmaq baxımından belə görüşlər hər zaman aktualdır.

Fərid Şəfiyev bildirib: "Hazırda Xəzər regionunda çətin siyasi proseslər gedir və bu proseslərlə bağlı ekspertlər səviyyəsində də müzakirələrə ehtiyac var. Qazaxıstan regionda etimad və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi istiqamətində aktiv işləyir. Ümumilikdə Cənubi Qafqaz və Mərkəzi Asiya tarixi iqtisadi, təhlükəsizlik, nəqliyyat baxımından bir-birinə çox bağlıdır. Hər iki ölkə böyük enerji potensialına malikdir və bu sahədə əməkdaşlıq dünyanın iqtisadi xəritəsində böyük rol oynayır".



Qazaxıstan Strateji Araşdırmalar İnstitutunun direktoru Yerkin Tukumov ikitərəfli əlaqələrə dair görüşlərin dinamik şəkildə keçirilməsi iki ölkənin bir-birinə marağının artmasının göstəricisi olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana nəzərdə tutulan səfəri ikitərəfli əlaqələrin inkişafına impuls verəcək. Əlaqələrin daha da inkişafında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Orta dəhliz çox böyük potensiala malikdir.

Mərkəz rəhbəri əlavə edib ki, turizm sahəsi də ikitərəfli əlaqələrin inkişafında diqqət edilməli məsələlərdən biridir. Biz bir-birimizi daha çox tanımalıyıq. Ümid edirəm ki, Bakı ilə Astana arasında yeni reysin açılması buna təkan verəcək.

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov qeyd edib ki, bu gün müzakirə olunacaq məsələlər iki ölkə arasında inteqrasiya proseslərinə müsbət təsir göstərəcək. İkitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində Qazaxıstanla əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. Səfir əlavə edib ki, Azərbaycan-Qazaxıstan əlaqələri türk dövlətlərinin inteqrasiyası prosesində vacib rol oynayır.

Qazaxıstanın Azərbaycandakı səfirliyinin müşaviri Jandos Nurmahambetov ötən il iki ölkə arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd olunduğunu və ilin kifayət qədər dinamik proseslərlə yadda qaldığını vurğulayıb. Qeyd edib ki, əlaqələrin inkişafı artıq sistemli şəkil alıb.

Daha sonra AR XİN-in Şərqi Avropa, Cənubi Qafqaz, Qərbi və Mərkəzi Asiya İdarəsinin rəis müavini Zamin Əliyev, Qazaxıstan "Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu"nun direktoru Talqat Kaliyev, AzTV-nin İctimai-siyasi proqramlar Studiyasının direktoru Tofiq Abbasov, Qazaxıstan Strateji Araşdırmalar İnstitutunun Asiyaşünaslıq şöbəsinin baş eksperti Bulat Auelbayev, "STEM Lab" Mərkəzinin direktoru Orxan Yolçuyev, Beynəlxalq Türk Akademiyasının baş eksperti Timur Kozırev çıxış ediblər. Çıxışlar zamanı Zəngəzur dəhlizinin açılmasının regional inkişaf proseslərinə təsiri, Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrinin inkişafı və bu məsələdə Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələrinin rolu, nəqliyyat, enerji dəhlizləri istiqamətində müzakirələr aparılıb.

# Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

## İranın riyakar davranışlarına layiqli cavab

Azərbaycana qarşı riyakarlıq yolunu tutmuş İran məkrli fəaliyyətini davam etdirir. Xüsusilə son dövrlər mütəmadi olaraq müxtəlif terror aktları törədir, əsassız ittihamlar səsləndirir, Azərbaycan əleyhinə "qətnamə" qəbul edir, "bəyanat" yayır.





### Fars-molla rejiminin agentura şəbəkəsinin fəaliyyətini təsdiqləyən faktlar var

İrana Azərbaycana qarşı təxribatçı və terror fəaliyyətlərinə görə dəfələrlə xəbərdarlıq edilsə də, molla rejimi buna məhəl qoymayıb. Bunun nəticəsidir ki, aprelin 6-da İranın ölkəmizdəki səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən arzuolunmaz şəxs elan edilib və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunub. Bu qərar da təsadüfi deyil, çünki İran ölkəmiz daxilində casus şəbəkəsi yaradılması fəaliyyəti ilə məşğuldur.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, İranın istənilən davranışı Azərbaycanın "dəmir yumruğ"u qarşısında acizdir. Ölkəmizin ərazi bütövlüyünə, milli təhlükəsizliyimizə və sabitliyimizə zərbə vurmağa cəhd göstərən istənilən addımların qarşısı layiqincə alınır.

Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə bildirib ki, Azərbaycanın hüquq-mühafizə orqanları əməliyyat fəaliyyətini davam etdirir və İranın xüsusi xidmət orqanlarının ölkə daxilindəki agentura şəbəkəsinin ifşa etmək üçün mühüm addımlar atır: "Artıq İranın casus şəbəkəsinin fəaliyyətini təsdiqləyən faktlar var. Elə buna görə də İran səfirliyinin 4 əməkdaşını "arzuolunmaz şəxs" elan edilərək ölkədən çıxarılmasına qərar verilib. Onlar səfirlikdə fəaliyyət göstərən kəşfiyyatçılar və yaxud da agentura şəbəkəsi ilə birbaşa işləyən şəxslərdir. Sadəcə olaraq, diplomatik toxunulmazlıqları olduqlarına görə, onlar həbs edilməyib və ölkəmizi qısa zamanda tərk etmələri barədə qərar qəbul edilib. Onların pozuculuq fəaliyyəti artıq sübuta yetirilib".

Deputat deyib ki, həmin diplomatlar Azərbaycan ərazisində agentura şəbəkəsinin işlərini koordinasiya etməklə məşğul olublar. Keçirilən əməliyyat tədbirləri nəticəsində onların radikal fəaliyyətlərinə aydınlıq gətirilib. Səfirlik nümayəndələrinin belə "koordinator" kimi fəaliyyət göstərməsi onların diplomatik statuslarına uyğun deyil. Belə hərəkətlər davam edərsə, Azərbaycan İranın yenə də fitnəkar davranışına layiqli cavab verəcək.

### Səfirlik əməkdaşları pozuculuq işləri ilə məşğul olublar

Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib ki, İranın Azərbaycanda yaratdığı casus şəbəkəsi terror qruplaşmasına çevrilib: "Azərbaycanın İrandakı səfirliyində, ardınca isə parlamentin deputatına qarşı törədilən terror aktları İranın ölkəmizə qarşı yürütdüyü düşmənçilik siyasətinin açıq nümunələridir. Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları həmkarımıza qarşı törədilmiş terror aktını araşdırarkən cinayətdə əli olan şəxslərin İranla əlaqədar olduqlarını aşkarlayıb, kimliklərini müəyyən ediblər. Bütün bunlar İranın din pərdəsi adı altında ölkəmizdə terror təşkilatı qurduğuna bir daha əminlik yaradır".

Deputatın sözlərinə görə, İran siyasətçiləri, dövlət və din xadimləri azmış kimi, artıq onların ordu generalları da ölkəmizə qarşı təhdid dolu çıxışlar edirlər. Həmçinin İranın kütləvi informasiya vasitələrində Azərbaycana qarşı yönəlmiş təxribat xarakterli məlumatlar yer alır. Bütün bunlar həm də İran əhalisində bizə qarşı nifrət oyatmağa xidmət edir. Lakin unudurlar ki, orada yaşayan 40 milyona yaxın azərbaycanlının ürəyi hər zaman doğma Azərbaycanla döyünür. Bu sevgini və məhəbbəti onların ürəyindən silmək mümkün deyil.

"İran XİN yenə riyakar davranır, guya Azərbaycan mətbuatında İran dövlətinə qarşı əsassız xəbərlərin yer alması ilə bağlı bizə nota ünvanlayır. Əslində isə, İran mətbuatında Azərbaycanda yaradılmış casus şəbəkəsini dəstəkləyən məlumatlar yayılır. Bütün bunları nəzərə alaraq, Azərbaycan XİN də gecikmədən İrana nota verib. Aprelin 6-da isə İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşı "arzuolunmaz şəxs" elan edilib və onlara ölkəni tərk etmələri üçün 48 saat vaxt verilib. Elə bu qərar da bir daha sübut edir ki, İran səfirliyinin nümayəndələri ölkəmizdə pozuculuq fəaliyyəti ilə məşğul olublar", - deyə deputat bildirib.

K.Əliyeva deyib ki, İran parlamentinin Azərbaycan-İsrail əməkdaşlığını bəhanə edərək "bəyanat" qəbul etməsi də riyakarlığın ən yüksək həddidir. Hayastan 30 il torpaqlarımızı işğalda saxlayanda, məscidlərimizi murdalayıb təhqir edəndə, bunu görüb susan, heç bir qətnamə qəbul etməyən İran parlamentinin bu davranışı ədalətsizdir. Cənub qonşumuz bu gün də işğalçı dövləti müxtəlif təxribatlar törətməyə stimullaşdırır. Görünür, İran parlamenti Fransadan ilhamlanır və onların ölkəmizə qarşı yürütdüyü siyasəti davam etdirir.

Deputat qeyd edib ki, Azərbaycan qətiyyətli siyasət yürüdür, özünə dost və qardaş olan, eləcə də düşmən münasibət bəsləyən dövlətləri yaxşı tanıyır: "Bu gün ölkəmizin dünyada artan nüfuzu, eləcə də siyasi və iqtisadi güc mərkəzinə çevrilməsi fars-molla rejimini ciddi narahat edir. Cənub qonşumuz anlamalıdır ki, Azərbaycan hərbi cəhətdən də çox güclüdür, həmçinin dünyanın kifayət qədər güclü dövlətləri ilə müttəfiqlik edir. Yəni beynəlxalq aləmdə vəziyyəti ağır olan İran Azərbaycanla düşmənçilik siyasəti aparmaqla yalnız öz vəziyyətini ağırlaşdırır".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Ekoaksiya iştirakçılarının tələbi dəyişməz qalır



Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekofəallar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 118 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, ekofəallar ötən gecə boyu da yüksək fəallıq nümayiş etdirib, səhər saatlarında hər zaman olduğu kimi, Azərbaycanın Dövlət himnini səsləndiriblər.

Ekoaksiya iştirakçılarının tələbi dəyişməz qalır. Onlar Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.

Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Rusiya sülhməramlılarına aid avtomobillər aksiya ərazisindən sərbəst keçirlər

Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 118-ci günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.



AZƏRTAC xəbər verir ki, sülhməramlılara məxsus 6 yük avtomobilinin Laçından Xankəndi istiqamətinə sərbəst hərəkəti təmin edilib.

Bu, bir daha onu göstərir ki, ərazidə hərəkət sərbəstdir.

Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

## *DSX rəisinin müavini:* "İran Azərbaycana qarşı həm də narkotik terroru həyata keçirir"

Dövlət Sərhəd Xidməti rəisinin əməliyyat-axtarış işi üzrə müavini, general-leytenant Firuz Şirinzadənin APA-ya müsahibəsi.



*- Əldə etdiyimiz məlumata görə, İranla dövlət sərhədində atışma olub. Bu məlumat nə qədər doğrudur?*

- Demək olar ki, hər gün bu cür hallarla qarşılaşırıq. Bəli, növbəti dəfə narkotik qaçaqmalçıları dövlət sərhədini pozmağa cəhd ediblər. Gecə saatlarında Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının "Horadiz" Sərhəd Dəstəsinin xidməti ərazisində narkotik vasitələrin ölkəyə gətirilməsinin qarşısı alınıb. Bir neçə nəfər sərhəd pozucusu ölkə ərazisinə keçmək istəyib, onlar sərhəd naryadının qanuni tələbinə tabe olmayıblar və sərhəd naryadına odlu silahdan atəş açıblar. Onlara qarşı silah tətbiq edilib, ərazinin mürəkkəb relyefli və havanın qaranlıq olmasından istifadə edən sərhəd pozucuları geri qaçıblar. Hadisə yerində isə onlara məxsus 63,5 kq narkotik vasitə aşkar olunub. Hazırda əməliyyat-axtarış tədbirləri davam etməkdədir.

*- Ümumiyyətlə, İrandan Azərbaycana qarşı narkotik terrorunun son zamanlar artması müşahidə olunur...*

- Əvvələ onu deyim ki, Azərbaycana narkotik vasitələr gətirməyə cəhd edən cinayətkarlara qarşı ən sərt tədbirlər həyata keçirilir. Sərhəd naryadlarına hər hansı silahlı müqavimət, yaxud qanuni tələbə tabe olmama halında narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib. Bu tədbirlər bundan sonra da tam qətiyyətlə davam edəcək.

O ki qaldı sizin də ifadə etdiyiniz kimi, İrandan narkotik terrorunun artmasına, bəli, statistika bu faktı təsdiqləyir. Son 5 ildə İran İslam Respublikasından Azərbaycana gətirilən narkotik vasitələrin həcmi 9 dəfə artıb. Belə ki, 2018-ci ildə 144,8 kq, 2022-ci ildə isə 1 ton 302 kq narkotik vasitə İİR ilə dövlət sərhədindən qanunsuz yolla gətirilməsinin tərəfimizdən aşkarlanıb. Son 5 ildə narkotik qaçaqmalçılığına görə 55 İran vətəndaşı saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunub.

*- Statistikaya nəzər yetirəndə maraqlı fakt ortaya çıxır. Məhz 2022-ci ildə İrandan Azərbaycana narkotik qaçaqmalçılığı cəhdlərinin həddən çox artdığını göstərir. Sizcə, bunun səbəbi nədir?*

- Ümumiyyətlə, 2021-2022-ci illərdə Azərbaycan-İran dövlət sərhədində (yaşıl sərhəddə) tutulmuş qaçaqmalın ümumi kütləsi 2 ton 113,4 kq olub. 2018-2020-ci illərdə - yəni əvvəlki 3 il ərzində dövlət sərhədində cəmi 1 ton 222 kq narkotik vasitənin tutulduğunu nəzərə alsaq, rəqəmlərdə kəskin artımın olduğunu görə bilərik. Bu isə onu göstərir ki, Vətən müharibəsindən əvvəlki dövrdə narkotik qaçaqmalçılığının böyük hissəsi Azərbaycan-İran dövlət sərhədinin 132 km-lik işğal altında olan hissəsinin payına düşüb. Vətən müharibəsində əldə etdiyimiz böyük zəfərədək işğal altında olan sərhəd ərazilərimizdən kütləvi narkotrafik məqsədilə istifadə edilib. İrandan gətirilən narkotik vasitələr həmin ərazilərdən keçirilməklə Ermənistana daşınıb. Ermənistan ilə birgə həyata keçirilmiş bu fəaliyyətdən həm Ermənistan, həm də İİR böyük həcmdə cinayətkar gəlir əldə ediblər. Bu barədə ölkəmizin hüquq-mühafizə orqanları çoxsaylı faktlar müəyyən ediblər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sərhədçilərinin böyük rəşadətlə döyüşərək azad etdiyi İİR ilə dövlət sərhəd xətti üzərində nəzarətimizin bərpa edilməsi böyük bir regional narkotrafikin də qarşısının alınmasına da öz töhfəsini vermişdir.

Xatırlatmaq yerinə düşər ki, ABŞ Dövlət Departamentinin narkotiklər üzərində beynəlxalq nəzarət strategiyası haqqında hesabatlarında da bu məqam dəfələrlə əks olunub. "Qara dəlik" kimi xarakterizə olunan bu narkotrafikdən əldə olunan böyük həcmli maliyyə vəsaitləri separatçı rejimin və Ermənistanın cinayətkar rəhbərliyinin şəxsi məqsədləri üçün sərf olunmaqla yanaşı, işğal altında olan ərazilərin azad olunmasının əngəllənmək məqsədilə silah-sursat alınması üçün də geniş istifadə olunub.

*- Mütəmadi olaraq narkotik qaçaqmalçılarının Azərbaycan sərhədçilərinə silahlı müqavimət göstərməsi barədə xəbərlər oxuyuruq...*

- Azərbaycan sərhədçiləri narkotik qaçaqmalçılarına qarşı ciddi və sərt tədbirlər görür. İrandan narkotik vasitələrin gətirilməsi ən müasir silahlar və xüsusi texniki avadanlıqla (gecə görmə cihazları və s.) malik silahlı dəstələr tərəfindən müşayiət olunur. Təkcə son 5 ildə sərhədçilərə qarşı 27 dəfə silahlı müqavimət göstərilib. Bu hallarda sərhəd naryadlarının cavab atəşi ilə 15 qaçaqmalçı zərərsizləşdirilib, 5-i yaralanıb. Zərərsizləşdirlmiş şəxslərdən 13 nəfəri İran, 2 nəfəri Azərbaycan vətəndaşı olub. Bu əməliyyatlar zamanı bizim də itkilərimiz olub. Belə ki, 3 hərbi qulluqçumuz şəhid olub, 5 nəfər yaralanıb.

Bir daha vurğulayıram ki, sərhəd naryadlarına silahlı müqavimət göstərən, qanuni tələbə tabe olmayan sərhəd pozucularına qarşı ən sərt tədbirlərin görülməsi əmri verilib.

*- Ölkəmizə narkotik vasitələrin gətirilməsi cəhdlərinin arxasında başqa məqsədlərin də olması barədə fikirlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?*

- Bu artıq təkzibolunmaz faktdır ki, İran İslam Respublikasının xüsusi xidmət orqanları Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş fəaliyyətində narkotik qaçaqmalçılığından da istifadə edir. Bu cinayətkar fəaliyyətə cəlb olunan şəxslərin sonradan müxtəlif yollarla xüsusi xidmət orqanlarının tapşırıqlarının yerinə yetirilməsinə məcbur edilməsi faktları da mövcuddur.

Buradakı digər mühüm məsələ isə faktiki olaraq Azərbaycan gənclərinə qarşı əvvəl də qeyd etdiyimiz kimi narkotik terrorun həyata keçirilməsidir. Bu bir faktdır ki, İran hazırda Azərbaycana qarşı həm də narkotik terroru həyata keçirir. Azərbaycan gənclərinin narkotiklərə aludə edilməsi xalqımızın gələcəyinə qarşı yönəlmiş təxribat xarakterli addımdır. Sxem çox aydındır, qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə narkotik vasitələr daşımaq, burada bu narkotik vasitələri satıb Azərbaycan gəncliyini zəhərləmək, əldə olunan vəsaitdən isə Azərbaycan dövlətçiliyinə qarşı təxribat xarakterli əməllərdə istifadə etmək. Lakin Dövlət Sərhəd Xidməti, həmçinin ölkəmizin hüquq-mühafizə orqanları bu məkrli planları ifşa edərək qarşısını alırlar.

*- Yeri gəlmişkən, Dövlət Sərhəd Xidməti digər hüquq-mühafizə orqanları ilə bu istiqamətdə əməkdaşlığı necə qurub.*

- Narkotik qaçaqmalçılığına qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidməti tərəfindən baş prokurorluq, dövlət təhlükəsizliyi, daxili işlər və gömrük orqanları ilə ən yüksək səviyyədə qarşılıqlı faydalı əməkdaşlıq və effektiv məlumat mübadiləsi sistemi formalaşdırılıb.

Bu əməkdaşlığın effektivliyi isə narkotik vasitələrin saxlanılma hallarının aşkarlanması, dərindən araşdırılması və istintaqı nəticəsində cinayətkar fəaliyyətin digər iştirakçılarının müəyyən edilməsində, cinayətkar şəbəkələrin ifşa olunmasında özünü göstərməkdədir.

## Hayastan əhalisi Paşinyandan narazıdır

### Bu ölkədə ağır şəraitdə belə hakimiyyət nümayəndələri əhaliyə kömək göstərmək, onu müdafiə etmək əvəzinə, daha çox varlanmaq barədə düşünür

Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər cəhdlə uzatmağa çalışan Hayastanın tənəzzülü daha sürətli xarakter almaqda, ölkənin üzləşdiyi çətinliklərin miqyası davamlı şəkildə genişlənməkdədir. Bütün bunlar isə iqtidarın əhali arasında nüfuzunun kəskin şəkildə aşağı düşməsi ilə müşayiət olunmaqdadır.

Həqiqətən də, araşdırmalar göstərir ki, Hayastanda iqtisadiyyatın ifrat mərkəzləşdirilməsi, bütün resursların hakimiyyətdəki ailə ilə oliqarxların əlində cəmləşməsi, vergilərin qərətə çevrilməsi nəticəsində Ermənistanda ağır bir situasiya formalaşıb. Bundan xilas olmaq üçün isə sadə vətəndaşlar xaricə qaçmağa üstünlük verirlər. Aparılan sorğulardan məlum olub ki, iştirak edənlərin 87 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 28 faizi ölkəni tərk etmək istədiyini bildirib.

İngiltərənin bu ölkədəki konsulluğundan bildirilib ki, Hayastanı tərk etmək istəyən insanların sayı dəfələrlə artıb. Konsulluğa Hayastanı birdəfəlik tərk edib İngiltərədə yaşamaq istəyən 135 mindən çox vətəndaş müraciət edib.

Bütün bunların fonunda qlobal maliyyə böhranının növbəti dalğasının başlaması Hayastan üçün əsl fəlakət sayılır və hesab edilir ki, əgər bu baş verərsə, onda ölkənin iqtisadiyyatının məhvə yuvarlanmasının qarşısını heç kim ala bilməz. Digər tərəfdən o da açıq etiraf edilir ki, böhran baş verərsə, bu, Hayastan əhalisinin aclıq problemi yaşamasını da qaçılmaz edəcək. Çünki böhran şəraitində həm müxtəlif xarici dövlətlərdən, həm də erməni diasporundan göndərilən yardımların miqdarı əhəmiyyətli dərəcədə azalacaq. Hazırda həm erməni əhalisi, həm də bu ölkənin iqtisadiyyatı xeyli dərəcədə həmin xarici yardımlardan asılıdır.

Bu arada "4r.am" saytı yazır ki, Paşinyan iqtidarının iqtisadi siyasətinin əsl adının "vergi terroru" və ya əhalinin bütün təbəqələrinə, o cümlədən kiçik və orta biznes nümayəndələrinə, büdcədən maliyyələşən işçilərə, kəndlilərə qarşı "qəddarlıq və aqressiya" olduğunu yazıb. Bildirilir ki, indiki ağır şəraitdə ölkə hakimiyyəti əhaliyə kömək göstərmək, onu müdafiə etmək əvəzinə, daha çox xalqın hesabına varlanmaq barədə düşünür: "İqtidarın iqtisadi aqressiyasından müdafiə olunan yeganə təbəqə oliqarxiyadır. Oliqarxlar sadə vətəndaşlardan fərqli olaraq heç nə itirmirlər, əksinə, öz kapitallarını daha da çoxaldırlar, inhisarçı mövqelərini genişləndirirlər. Digər tərəfdən bu, əhalinin məmurlar tərəfindən, sözün əsl mənasında, qarət edilməsinin sübutu olmaqla bərabər, Hayastanda iqtisadi fəlakətin daha da geniş vüsət alması, iqtisadiyyatın birdəfəlik çöküşü deməkdir".

Bütün bunların fonunda hökumətə qarşı İrəvanda tədricən yüksəlməyə başlayan etirazlar ölkədə növbəti xaos yaradacağı ehtimalını daha da artırıb. Hakimiyyət özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin güllələr hesabına dağıtmağa üstünlük verir. Kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır, deputatlara qarşı hücumlar təşkil olunur.

Bu problemlər onu deməyə əsas verir ki, Hayastan cəmiyyəti kifayət qədər ciddi problemlərlə üz-üzədir. Yaranmış vəziyyət İrəvanın bütövlükdə ciddi siyasi böhrana yuvarlandığından xəbər verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Türkiyəyə yardıma gedən Azərbaycan könüllüləri ilə görüş olub

Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Türkiyədə baş verən zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə qardaş ölkədə fəaliyyət göstərmiş Azərbaycan könüllüləri ilə görüş keçirilib.




Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən türk xalqına yardım məqsədilə həyata keçirilən və xalqımızın da böyük dəstək verdiyi genişmiqyaslı tədbirlərə qoşulan Azərbaycan könüllülərinin fəaliyyətinin yekunlarına həsr olunmuş tədbir rəsmi və bədii hissələrdən ibarət olub.

Mərasimin bədii hissəsində təbii fəlakət nəticəsində çadır şəhərciklərində yaşayan türkiyəli uşaqlar tərəfindən çəkilən rəsmlərdən ibarət sərgi təşkil olunub.

Tədbir iştirakçıları tərəfindən xüsusi maraqla qarşılanan sərgidə nümayiş edilən rəsmlərdə kədərlə yanaşı, Azərbaycana və könüllü gənclərimizə olan sevgi aydın təsvir edilib.

Azərbaycan könüllülərinin qardaş ölkədəki fəaliyyətinə həsr edilmiş tədbirin rəsmi hissəsi Dövlət himninin səsləndirilməsi ilə açıq elan edildikdən sonra zəlzələdə həyatını itirən insanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Daha sonra təbii fəlakətin ilk günlərindən etibarən bir ay müddətində Türkiyədə zəlzələ qurbanlarına dəstək göstərən Azərbaycan könüllülərinin fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərovun, fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyevin, Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçının, Milli Məclisin deputatı Cəbi Quliyevin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyevin də qatıldığı tədbirdə çıxış edən natiqlər Türkiyədə baş verən dağıdıcı zəlzələnin Azərbaycan xalqında dərin sarsıntı yaratdığını və xalqımızın hər bir nümayəndəsinin yardıma tələsərək qardaş ölkənin yanında olmaq istəyini və bu çağırışa qoşulan Azərbaycan könüllülərinin bir ay boyunca göstərdikləri yardımın hər iki xalq arasında mövcud olan dərin tarixi qardaşlıq bağlarına və çətin anlarda qarşılıqlı dəstək ənənələrinə bağlı olduğunu dilə gətiriblər. Natiqlər türkiyəli könüllü gənclərlə çiyin-çiyinə çalışan Azərbaycan könüllülərinin Kahramanmaraş, Malatya, Hatay və Adıyaman şəhərlərində zəlzələnin fəsadlarının aradan qaldırılmasında, minlərlə sakinə humanitar yardımın çatdırılmasında, eləcə də digər zəruri dəstək tədbirlərinin təmin edilməsində əzmkarlıqlarını vurğulayıblar.

Daha sonra Azərbaycan könüllülərinin təltifedilmə mərasimi keçirilib və zəlzələdən zərərçəkən bölgələrdə yardım dəstəyi göstərən könüllülərin təəssüratlarından bəhs edən videosüjetlər təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Ekokönüllülər", "Böyük Qayıdış" və digər könüllü təşkilatlarının 150 üzvünün Türkiyə Gənclik Fondunun nümayəndələri ilə birgə dövlət başçısının "Bir yumruq, bir ürək, bir can" şüarını rəhbər tutaraq qardaş ölkədə zəlzələ bölgələrində bu fəaliyyəti Azərbaycan gənclərinin həm müddət, həm də say baxımından mütəşəkkil formada xarici ölkədə humanitar yardım istiqamətində təşkil olunmuş ilk könüllü fəaliyyəti kimi tarixə düşüb. Azərbaycanlı könüllülər zəlzələ bölgəsində çox çətin şəraitin olmasına, dağılmış ərazilərə yetişməyin çətinliklərinə baxmayaraq, uzun yol qət edərək zəlzələdən zərərçəkənlərin köməyinə çatıb. Azərbaycan gənclərinin Türkiyədəki bu nəcib fəaliyyəti bir daha sübut edir ki, ölkə rəhbərliyinin könüllülülük fəaliyyətinə və könüllülərə daima diqqət və qayğısı nəticəsində Azərbaycanda geniş vüsət almış könüllülülük hərəkatı artıq daha geniş imkanlara sahibdir.

Ağır və məsuliyyətli fəaliyyətin öhdəsindən müvəffəqiyyətlə gələn könüllülər tədbirdən sonra Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Mingəçevir şəhərində təşkil ediləcək üçgünlük düşərgəyə yola düşüblər. Düşərgə müddətində gənclərlə Dövlət Sərhəd Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Türkiyənin ölkəmizdəki səfirliyinin nümayəndələri ilə görüşü, interaktiv komanda oyunları, əyləncəli, musiqili asudə vaxt, idman yarışları və Şəki şəhərinə infotur təşkil ediləcək.

# TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu dövr sədrliyi Türkiyədən Azərbaycana ötürülüb





Aprelin 7-də Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu İclasının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetində baş tutan tədbirdə Azərbaycan Respublikasının xarici işlər naziri, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının sədri Ceyhun Bayramovun videomüraciəti təqdim edilib. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsini icra edən Adil Kərimli, TÜRKSOY-un baş katibinin müavini Bilal Çakıcı və UNESCO üzrə Türkiyə Milli Komissiyasının prezidenti Öcal Oğuz açılış mərasimində çıxış ediblər. Açılış zamanı TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu dövr sədrliyi Türkiyə Respublikasının UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına ötürülüb.

ADA Universitetinin Dövlət, xarici və tələbə işləri üzrə prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən açılış mərasimində UNESCO Baş direktorun Prioritet Afrika və Xarici Əlaqələr üzrə müavini Firmin Eduard Matokonun ünvanladığı videomüraciət tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Çıxışçılar sırasında yer alan Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının ilk sədri Həsən Həsənov, Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə ötən 30 il ərzində Azərbaycan və UNESCO arasında əməkdaşlığın inkişafından bəhs edərək mədəni irsimizin dünyada daha geniş miqyasda tanıdılmasına fayda verəcək təkliflərlə çıxış ediblər.

Açılış mərasimi başa çatdıqdan sonra panel müzakirələr və seminarlar öz fəaliyyətinə başlayıb.

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyanın baş katibi Seymur Fətəliyevin moderatorluğu ilə keçirilən ilk paneldə ölkəmizin UNESCO-nun icra etdiyi proqram və layihələrə dəstəyi və əməkdaşlıq imkanları müzakirə edilib, həmçinin panel iştirakçılarının bu istiqamətdə təklif və tövsiyələri dinlənilib.

ADA Universitetinin dövlət, xarici və tələbə işləri üzrə prorektorunun müşaviri, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyevanın moderatorluğu ilə keçirilən növbəti panel mədəni irsin qorunması, elm, təhsil sahəsi üzrə UNESCO çərçivəsində əlaqələrin daha da genişləndirilməsi və birgə beynəlxalq tədbirlərin keçirilməsi mövzularını əhatə edib.

Maddi və qeyri-maddi mədəni irs, təbii irsin qorunması və təhsil məsələlərini əhatə edən seminarlardan və mütəxəssis rəyləri dinlənildikdən sonra TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının ölkəmizdə keçirilən 9-cu İclasının yekun bəyanatı işlənib hazırlanıb. 2023-cü il türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçiriləcək iclasın yekun bağlanış mərasimində sözügedən bəyanat qəbul ediləcək.

# Zəfərimiz də, uğurlarımız da birdir

Bir millət, iki dövlət olan Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı dünyaya örnəkdir. Ölkələrimiz arasındakı möhkəm və sarsılmaz birlik sayəsində Türkiyə və Azərbaycan qarşılarına çıxan bütün çətinlikləri birgə dəf edir, xoş gündə də, dar gündə də bir yerdə olur, uğurlarını bir-birləri ilə paylaşırlar.

Prezident İlham Əliyevin ifadə etdiyi kimi: "Türkiyə və Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır".

Azərbaycan və Türkiyənin tarixin müxtəlif dönəmlərində bir-birlərinə arxa-dayaq durmaları ilə bağlı xeyli qürurlu hadisələr yaşanıb. Bu dostluq və qardaşlıq bağları hər ötən zaman daha da möhkəmlənərək bu gün özünün ən yüksək zirvəsinə çatıb. Və qardaş dövlətlərin birgə fəaliyyəti nəinki Türkiyə və Azərbaycanın, ümumilikdə türk dünyasının güclənməsinə töhfə verib.

Vətən müharibəsinin ilk günündən Azərbaycanın Türkiyənin mənəvi siyasi dəstəyini hiss etməsi ona əlavə güc və ruh verdi. Həmin günlərdə ard-arda Türkiyənin ölkəmizlə bağlı səsləndirdiyi həmrəylik fikirləri düşmənlərimizə Azərbaycanın tək olmadığı ilə bağlı xəbərdarlıq mesajları oldu. Vətən müharibəsində qazandığımız parlaq zəfər həm də tarixən var olan türk coğrafiyasını bərpa etdi.

## Sarsılmaz birlik

Bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı Azərbaycan qardaş Türkiyənin köməyinə yetən ilk ölkə oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi. Bütün Azərbaycan xalqı xoş günlərində olduğu kimi, faciə ilə üz-üzə qaldığı zamanlarda da qardaş türk xalqının yanında olduğunu bir daha nümayiş etdirdi.

Onu da vurğulayaq ki, Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü baş tutdu.

Azərbaycan və Türkiyənin sarsılmaz birliyinə nümunə olaraq gətirdiyimiz bu bir neçə fakt da göstərir ki, iki qardaş ölkə kədərini də, sevincini də, qalibiyyətini də birgə yaşayır, bütün çətinlikləri də sarsılmaz birliklərinin gücü ilə aşırlar.

## "Qızıl alma" - türkün güc simvolu

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün digər sahələrdə olduğu kimi, hərbi və müdafiə sənayesində də uğurla inkişaf edir. Vətən müharibəsində Zəfər qazanan Azərbaycan həm də ilk "smart müharibə" aparan ölkə kimi dünyanın hərb salnaməsinə adını həkk etdi. 44 günlük müharibədə ölkəmiz müasir hərbi sənayeyə malik Türkiyənin "BAYKAR Texnoloji" şirkətinin "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından məharətlə istifadə etdi, düşmənin mövqelərini, hərbi və canlı qüvvəsini məhv etdi. Bir sözlə, "Bayraktar" PUA-ları vasitəsilə düşmənin külü göyə sovruldu.

Vətən müharibəsində dünya müasir Türkiyə hərbi sənayesinin gücünü döyüş meydanında əyani şəkildə gördü. O da təsadüfi olmadı ki, qardaş ölkə daha bir yeni PUA-sını məhz Azərbaycandan dünyaya tanıtdı. 2022-ci il mayın 26-29-da Bakıda ilk dəfə keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında Türkiyə "Akıncı" adı verdiyi PUA-sını dünyaya nümayiş etdirdi. Qeyd edək ki, "Akıncı" Azərbaycana Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxaraq Gürcüstan üzərindən keçməklə təxminən 2 min kilometr məsafəni qət edərək gəlmişdi.

Qardaş Türkiyənin hərbi sənayesi hər ötən gün daha da inkişaf edir, yeni müasir savaş sistemləri təqdim edir. Bu baxımdan ölkənin ilk milli Silahlı İnsansız Hava Aparatlarının (SİHA) istehsalçısı olan "Baykar" şirkətinin ölkənin ilk pilotsuz zərbə qırıcı təyyarəsi hesab edilən "Qızıl alma" xüsusi diqqət çəkir.

Aprelin 3-də Prezident İlham Əliyevin Bakıda səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşü oldu. Sözügedən görüşdə dövlətimizin başçısı Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğuladı və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd etdi.

Görüş zamanı dövlətimizin başçısına simvolik olaraq "Qızıl alma"nın xatirə hədiyyəsi təqdim olundu.

## Türkiyə uğurlarını qardaşı Azərbaycanla bölüşür

Son illər hərbi sənaye ilə yanaşı, Türkiyənin mülki sənayesi də sürətlə inkişaf edir. Eləcə də müasir nəqliyyat sənayesində yeni dönəmə qədəm qoyulub. Türkiyənin ilk milli istehsalı olan "Togg" da bu baxımdan xüsusi diqqət çəkir.

"Togg"un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da keçirilib. Yerli istehsal olan tam elektrikli ilk avtomobil Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim edilib. Aprelin 4-də isə "Togg"un ikincisi Bakıda Prezident İlham Əliyevə təqdim olundu. Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "Togg" elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim etdi.

Qeyd edək ki, Türkiyənin milli istehsalı olan "Togg" elektromobilinin ilk sifarişçilərindən biri dövlət başçımız Prezident İlham Əliyev olub. Ötən il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti zamanı Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib.

Prezident İlham Əliyevin də vurğuladığı kimi Türkiyə sənayesi hərtərəfli inkişaf edir və yeni-yeni uğurlar əldə edir. "Bayraktar", "Akıncı", "Qızıl alma", "Togg" qardaş ölkənin bu sahədə əldə etdiyi yüksək nailiyyətlərdir.

O da qürur duyulacaq məqamdır ki, qardaş Türkiyə bütün sahələrdə qazandığı uğurlarını Azərbaycanla bölüşür. Və bu, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyənin sarsılmaz qardaşlığının göstəricisidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan vətəndaşları Türkiyədə növbəti prezident seçkilərində Ərdoğanı qalib görmək istəyirlər

*Mayın 14-də Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək. Bu seçkilər Türkiyə və dünyanı olduğu kimi, Azərbaycanı da yaxından maraqlandırır. Azərbaycan-Türkiyə münasibətləri baxımından qarşıdan gələn seçkilərin həssaslığı anlaşılandır. Bəs, Azərbaycan insanı Türkiyədə keçiriləcək prezident seçkilərində kimin qalib gəlməsini istəyir?*

*APA bu məqsədlə Bakı küçələrində vətəndaşlar arasında sorğu keçirib. Sorğunun nəticələrini təqdim edirik:*

**Nizam Süleymanov:** Türkiyənin son illər iqtisadi inkişafını və güclü dövlət kimi söz sahibi olmasını yüksək qiymətləndirirəm. Bunların hamısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Qarşıdakı seçkilərdə Ərdoğanın yenidən qardaş ölkənin Prezidenti seçilməsini istəyirəm. Onu siyasətçi kimi, bir lider kimi çox sevirik. Ərdoğan ölkə başçısı seçiləndən Türkiyə dövləti çox qabağa getdi, dünyada söz sahibi ölkələrdən biri oldu. Həm iqtisadiyyatı, həm hərbi cəhətdən Türkiyənin inkişafı göz qabağındadır. O türk dövlətlərinə hər zaman dəstəkdir. O böyük Turanın, onun ordusunun qurulmasını istəyir. Biz onu dəstəkləyirik. Seçkilərdə ona uğurlar arzu edirik.

**Mirheydər Abbasov:** Türkiyənin son dövrlərdə inkişaf etməsi, iqtisadi baxımdan güclənməsi bizim üçün fəxrdir. Biz qardaşıq, onların güclü olması bizim üçün yaxşıdır. Bizə arxa və dayaqdırlar. Türkiyəni hazırda çətin seçkilər gözləyir. Birmənalı olaraq Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə Prezidenti seçiləcəyinə əminəm. Çünki onun rəqibinin çıxışlarına baxıram. Yalnız boş və avantürist bəyanatlar verir. Ərdoğan isə böyük siyasətçi, böyük şəxsiyyətdir. Hazırda türk dünyasının böyük liderlərindən biridir.

**Məhəmməd Hümbətov:** Türkiyə böyük dövlətdir. Müsəlman aləminin qüdrətli, böyük dövlətidir. 1970-80-ci illərdə Turqut Özalın rəhbərliyi altında Türkiyə böyük sıçrayış elədi. Bununla da Türkiyə dünyada inkişaf etmiş dövlətlərdən biri oldu. Heç də təsadüfi deyil ki, hazırda da NATO kimi təşkilatın üzvüdür. Türkiyənin apardığı siyasət və Azərbaycana göstərdiyi diqqət qiymətləndirilməlidir. Hazırda biz onlarla fəxr etməliyik.

Türkiyə hazırda seçkiyə hazırlaşır. Açığı indidən kimin Prezident seçilməsini bilmək olmaz. Amma Ərdoğanın yenidən Prezident seçilməsi arzuolunandır. Bu, Azərbaycanın gələcəyi nöqteyi-nəzərindən də çox vacib amildir. Ərdoğan dünya siyasətində öz yeri olan siyasətçidir, onun xüsusi çəkisi var. Əsas odur ki, o, Azərbaycanın dostudur.

**Təranə Yusifova:** Türkiyə bizim qardaş ölkəmizdir. Hər zaman onların güclü olması bizim də güclü olmağımız deməkdir. Onların insanı bizim insanımızdır. Onların sevinci, kədəri bizim sevinc, kədərimizdir. Qarşıda seçki var. Birmənalı olaraq Ərdoğanın seçkidə qalib olmasını arzulayırıq. Düşünürəm ki, dünyada onun kimi siyasətçi azdır. Hər yerdə öz sözünü, dövlətinin, ümumiyyətlə, türk dünyasının sözünü deyir və müdafiə edir.

Ərdoğan türk dünyasını birləşdirmək üçün də yorulmadan səy göstərir. Bu səbəbdən bizim üçün, ümumiyyətlə, dünyada yaşayan türklər üçün ən yaxşısı Ərdoğanın yenidən Prezident olmasıdır.

**Mirələm Adışov:** Türkiyədə seçkilərdən kimin qalib olmasına baxmayaraq, onlara uğurlar arzu edirəm. Qərarı Türkiyə vətəndaşları verəcək. Kimin ölkə başçısı olmasından asılı olmayaraq Türkiyə böyük və qüdrətli dövlətdir. Dünya ölkələri arasında söz sahibidir. Bu səbəbdən də adların fərqi yoxdur. Kim olmasına baxmayaraq, bizim qardaşımızdırlar, uğurları uğurumuzdur.

**Əliqardaş Məmmədov:** Türkiyə son dövrlərdə iqtisadi baxımdan çətinliklərə düşüb. Bunun bir səbəbi də ölkədə baş verən təbii fəlakətlərdir. Türkiyə böyük dövlətdir və iqtisadi baxımdan da qüdrətlidir. Zəlzələ isə onları bir az geri saldı. Qarşıdan gələn seçki prosesi çox ağır olacaq. Amma Ərdoğanın qalib olacağına ümid edirəm. İstər öz vətəndaşlarının, istərsə də xarici vətəndaşların ona sevgisi var. Zəlzələnin nəticələrinin aradan qaldırılması üçün də Ərdoğanın əlaqələri lazımdır. Onun xarici ölkə başçıları ilə əlaqələri çox yüksək səviyyədədir. Böyük siyasətçi, uzaqgörən insandır. Milli kimliyə sahibdir. Məncə əsas amillərdən biri də odur ki, rəhbər dövlətini, millətini sevsin.

**Nəsimi Əhmədov:** Ərdoğan hardadırsa, demək ki, orada işıq var. Ərdoğan varsa, Türkiyə xalqı əziyyət çəkməyəcək. Dövlət başçısı kimi öz xalqını, millətini sevir. Türk dövlətini sevən, onların birləşməsini sevən insandır. Onların bir-birinə dayaq olmasını istəyən dövlət başçısıdır.

**Aydın Məmmədov:** Türkiyədə hazırda iqtisadi baxımdan zəiflik yaranıb. Ölkədə zəlzələnin də təsiri çoxdur. Düşünürəm ki, bu seçkilərdə Ərdoğan qalib gələ bilməyəcək. Türkiyə seçicisinin bu dəfə Kamal Kılıçdaroğlunu seçəcəyini düşünürəm. Ərdoğan siyasətçi kimi dünyada tanınır. Sadəcə, son hadisələr seçkilərə təsir göstərəcək.

**Fəhmin Əzizli:** Türkiyə çox güclü dövlətdir. İqtisadi baxımından inkişafı göz qabağındadır. Azərbaycana da hər zaman dəstək nümayiş etdirir. Türkiyənin son dövrlərdə inkişafının bir səbəbkarı var - o da Prezident Rəcəb Tayyib Ərdoğandır. Ərdoğan Türkiyəyə lazımlı adamdır. Onun duruşu, sözü dünyada sayılır, seçilir. Bu səbəbdən indiki Türkiyəyə Ərdoğanın yenidən Prezident seçilməsi gərəkdir.

**Elçin Nağıyev:** Türkiyə istənilən sahədə inkişaf edir. İstər iqtisadi, istər sosial, istərsə də hərbi baxımından. Hərbi baxımından inkişaf lap yüksəkdir. Artıq Türkiyə öz silahlarını, pilotsuz uçuş aparatlarını dünyaya satır. 44 günlük müharibə vaxtı Türkiyə hərbi sənayesinin gücünü bütün dünya gördü. Bunların hamısı Ərdoğanın dövründə baş tutdu. Bu səbəbdən deyə bilərəm ki, Ərdoğan hakimiyyəti dövründə Türkiyə çox inkişaf etdi. İndiki zamanda mənim fikrimcə, Ərdoğanın seçkidə qalib gəlməsi lazımdır. Lakin seçimi Türkiyə vətəndaşları edir. Öz daxili vəziyyətlərinə uyğun seçimləri edəcəklər. Ərdoğan böyük şəxsiyyət, dahi liderdir.

**Gülağa Rəhimov:** Türkiyə böyük dövlətdir. İstənilən sahədə inkişaf edir. Sözün əsl mənasında, Türkiyə dünyada sözünü deyən ölkələrdəndir. Ərdoğan da bu dövlətə doğru liderlik edir. Keçiriləcək seçki ilə bağlı digər namizədlərin platformalarını izləyirik. Düşünürəm ki, layiqli namizəd məhz Ərdoğandır. Neçə illərdir ölkəyə rəhbərlik edir. Onun hakimiyyəti dövründə Türkiyə inkişaf edib. 44 günlük Qarabağ savaşında bizim ən böyük dəstəkçimiz də Türkiyə və onun başçısı Ərdoğan olub. Bu səbəbdən onun yenidən seçkilərdə qalib gəlməsini istəyirəm.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan-Tacikistan iqtisadi əlaqələri qarşılıqlı etimada əsaslanır



**Azərbaycan-Tacikistan diplomatik münasibətlərinin 30 illiyi ərzində iki ölkə arasında sıx iqtisadi əlaqələr qurulmuşdur. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin son Düşənbə səfəri də dostluq münasibətlərini təcəssüm etdirən nümunələrlə zəngin olmuşdur.**

Tacikistan Prezidenti Emoməli Rəhmon mətbuata açıqlamasında etiraf etdi ki, iki xalqın münasibətlərində ən qürurlu məqamlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə bağlıdır: "...buna çox cəhətdən əsası Azərbaycan xalqının görkəmli oğlu və mənim dostum, böyük yoldaşım Heydər Əliyev tərəfindən qoyulmuş sıx, qarşılıqlı etimada əsaslanan əlaqələr şərait yaradır. Gələn ay Heydər Əliyevin 100 illiyini Tacikistanda da qeyd edəcəyik".

Qarşılıqlı əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin də atdığı addımlar tarixi dostluğumuzun dərin köklərinə söykənir. Bu dostluq tarixinə qısa da olsa nəzər salmaq yerinə düşərdi. Azərbaycan-Tacikistan münasibətlərinin tarixi əsrlərlə ölçülür. Klassiklərimiz Məhəmməd Füzuli, Nizami Gəncəvi tacik xalqı tərəfindən dərin məhəbbətlə sevilir. Azərbaycan diasporunun bir çox nümayəndələri XX əsrin 20-30-cu illərində savadsızlığı ləğv etmək məqsədilə, digərləri isə Stalin repressiyasının qurbanı kimi Tacikistana göndəriliblər. Hətta 1930-1933-cü illərdə Tacikistan KP MK-nin birinci katibi azərbaycanlı Mirzə Davud Hüseynov olmuşdur. Yaxın keçmişdə - 2008-ci ildə isə Tacikistanda şaxtalı havalar ölkə iqtisadiyyatına ziyan vuranda Azərbaycan qardaş ölkəyə bir milyon dollar məbləğində humanitar yardım etmişdir.

Başqa misal: sovet dönəmində taciklər üçün həyati əhəmiyyət kəsb edən "Nurek" Su-Elektrik Stansiyasının tikintisinə Moskva rəhbərliyi etiraz etmişdi. Amma Heydər Əliyev bu layihəni tikinti başa çatana qədər dəstəklədi. Bu gün "Nurek" SES paytaxt Düşənbə də daxil olmaqla, Tacikistanın əksər ərazilərini elektrik enerjisi ilə təmin edir.

Prezident İlham Əliyevin Tacikistana növbəti səfəri çərçivəsində iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı üçün aparılan danışıqlar zamanı investisiyalar, sənaye kooperasiyası, kənd təsərrüfatı, nəqliyyat sahələrində və yanacaq-energetika kompleksində qarşılıqlı fəaliyyətin istiqamətləri müzakirə edilmişdir. Bundan başqa, sənaye kooperasiyası sahəsində yüngül, kimya və dağ-mədən sənayesi, tikinti materiallarının istehsalı, alüminiumun, pambıq lifinin, qiymətli və yarımqiymətli daşların və metalların emalı sahələrində birgə layihələrin həyata keçirilməsi üçün mövcud imkanlar nəzərdən keçirilmişdir. Energetika sektoru üzrə Tacikistanın neft-qaz yataqlarının işlənilməsində Azərbaycan şirkətlərinin iştirakı da maraqla qarşılanmışdır. Bundan başqa, əlverişli tranzit imkanlarından fəal istifadə, Tacikistanın dövlət və kommersiya strukturlarının yükdaşıma həcmlərinin artırılması nəzərdən keçirilmişdir.

Prezident İlham Əliyev mətbuata açıqlamasında bildirmişdir: "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa, nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı".

Dövlət başçısı həmçinin belə hesab edir ki, bugünkü uğurlu inkişafımızın arxasında məhz böyük liderlərin və xalqlarımızın böyük və gərgin əməyi durur: "Emoməli Şərifoviçin dediyi kimi, gələn ay biz Azərbaycan dövlətçiliyinin banisinin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Mən tacik qardaşlarımıza təşəkkür edirəm ki, Heydər Əliyevin xatirəsi Tacikistanda da qeyd ediləcək".

Xəbər verildiyi kimi, Azərbaycan Prezidentinin Düşənbə səfəri çərçivəsində iki ölkə arasında əlaqələrin inkişafını sürətləndirən bir sıra sənədlər imzalanmışdır. Bu sırada iqtisadi əlaqələrin geniş inkişafına daha çox yer ayrılmışdır. İki ölkənin gömrük xidmətləri arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında protokol; "2025-ci ilədək Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planı" "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Tacikistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2023-2024-cü illər üzrə kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinə dair Yol Xəritəsi; "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsi arasında investisiyalar, startapların təşviqi və sahibkarlıq sahəsində Anlaşma Memorandumu"; "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Tacikistan Respublikasının Hökuməti yanında Turizmin İnkişafı üzrə Komitə arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu; "Azərbaycan Respublikasının Mərkəzi Bankı və Tacikistan Milli Bankı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanan sənədlər sırasındandır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ahıllar üçün sosial xidmət müəssisəsində Heydər Əliyevlə bağlı xatirə tədbiri keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində Ümummilli Lider Heydər Əliyevlə bağlı xatirə tədbiri keçirilib.**

Tədbirdə Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Cavanşir Alxasov və digər şəxslər iştirak edib.

Ulu Öndər Heydər Əliyevin 25 il əvvəl, 1998-ci ilin 8 aprelində Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə gələrək burada yaşayan ahıl insanlarla görüşünü əks etdirən videogörüntülər nümayiş olunub.

H.Abdullayev 1993-cü ildə xalqın çağırışı ilə yenidən Azərbaycanın rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlət quruculuğunu həyata keçirməklə bərabər, ölkəmizin sosial inkişaf strategiyasını formalaşdırdığını vurğulayıb.



Qeyd edilib ki, 25 il əvvəl Qurban bayramı ərəfəsində Ulu Öndər Heydər Əliyevin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə gələrək müəssisə sakinlərini təbrik edib və həmin görüşdə çıxışı zamanı bildirib: "Əmin ola bilərsiniz ki, sizin həyatınız, yaşayışınız daim bizim, Prezidentin qayğısı altındadır və bundan sonra da belə olacaqdır". Aradan ötən dövrdə bu sözlər real həyatda öz təsdiqini tapıb, ölkəmizdə ahıl vətəndaşlara qayğı ildən-ilə artıb.

Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan bütün sahələrdə, həmçinin sosial sahədə mühüm nailiyyətlər əldə edib. Ahıl şəxslərin yaşadığı bu müəssisədə də müasir tələblərə uyğun şərait yaradılıb, müəssisənin 5 mərtəbəli 170 yerlik əlavə korpusu da tikilərək istifadəyə verilib.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi sakinlərinə qayğısı, fondun dəstəyi ilə burada tez-tez humanitar məqsədli tədbirlər keçirildiyi qeyd olunub.

A.Rəhimzadə, C.Alxasov, digər çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə sosial müdafiə sisteminin inkişafı, ahılların sosial müdafiəsinin gücləndirilməsi üçün göstərmiş olduğu mühüm tarixi xidmətləri diqqətə çatdırıblar.

25 il əvvəl Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin direktoru işləmiş Bəhruz Əlmədətov Ulu Öndərimizin bu müəssisəyə gəlməsindən, ahıllarla səmimi həmsöhbət olmasından bəhs edib, bu görüşün ahıllara böyük diqqət və qayğının nümunəsi olduğunu vurğulayıb.

Həmçinin Ahıllar evinin sakinləri Ümummilli Lider Heydər Əliyevlə bağlı daim qəlblərində yaşayan işıqlı xatirələrini bölüşüblər.

Qeyd olunan sosial xidmət müəssisəsində hazırda 200-ə yaxın sakin yaşayır. Burada hər bir otaq lazımi məişət avadanlıqları ilə təmin edilib, ahıl şəxslərin yaşayışı, keyfiyyətli sosial xidmətlərlə təmin olunmaları üçün mühüm tədbirlər görülüb.

## Sahibkarlar Serbiya-Azərbaycan biznes forumunda iştiraka dəvət olunurlar

**Aprelin 28-də Belqradda Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçiriləcək.**

İclas çərçivəsində Serbiya-Azərbaycan biznes forumu baş tutacaq. AZPROMO və Serbiyanın Ticarət və Sənaye Palatasının (CCIS) birgə təşkilatçılığı ilə keçiriləcək tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların iştirakı nəzərdə tutulur.

## "Qazaxıstan BTC-nin doldurulmasını qarşısına məqsəd qoyub"

**"Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri 40 faiz doludur və tranzit daşıma üçün 20 milyon ton həcm qalır ki, biz bunu qarşımıza məqsəd qoymuşuq".**

Bu barədə Qazaxıstanın ticarət və inteqrasiya naziri Serik Jumanqarin Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyasının 19-cu iclasının kuluarlarında jurnalistlərin suallarını cavablandırarkən deyib. Trend xəbər verir ki, o, Azərbaycan və Qazaxıstanın neft-qaz şirkətləri olan SOCAR və "KazMunayQaz" arasında imzalanmış sazişin 1,5 milyon ton neftin tranziti üçün nəzərdə tutulduğunu əlavə edib.

"Artıq bu ilin mart ayında Bakı-Tbilisi-Ceyhan marşrutu ilə 20000 ton tranzit daşınma olub, aprel ayında isə 125000 ton tranzit daşıma planlaşdırılır. Qazaxıstanın operatorları ilk neft həcmlərini marşrutun sınaqdan keçirilməsi üçün pilot olaraq nəzərdən keçirir", - S.Jumanqarin vurğulayıb.

O, digər istiqamətlərdə də, xüsusən, ticarət sahəsində əməkdaşlığın möhkəmləndiyini qeyd edib.

"Qazaxıstan statistikasına əsasən, qarşılıqlı ticarət dövriyyəmiz təqribən 500 milyon dollara çatıb", - S.Jumanqarin sonda deyib.

Xatırladaq ki, Bakıda Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyasının 19-cu iclası keçirilib.

## AÇG-dən 2 milyard dollardan çox gəlir əldə edilib

**Cari ilin ilk 3 ayında "Azəri-Çıraq-Günəşli" yatağından 2 milyard 44 milyon ABŞ dolları gəlir əldə edilib.**



Dövlət Neft Fondundan bildirilib ki, "Şahdəniz" yatağından (qaz və kondensat) isə yanvar-mart aylarında 646 milyon 359 min ABŞ dolları gəlir əldə olunub. O cümlədən "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər 128 milyon 166 min ABŞ dolları təşkil edib.

## "Yağışdan çıxıb yağmura düşən" dünya iqtisadiyyatı fonunda Azərbaycan reallığı

### Bu reallıq ölkəmizə perspektivli yaxın gələcək vəd edir

**Dünya COVID-19 deyilən bir kabus yaşadı. Hələ də mənşəyi bilinməyən virus iki ildə milyonlarla can aldı və hələ də əvvəlki kimi kütləvi olmasa da, almaqda davam edir. Aradan xeyli vaxt keçsə də, bu virusun yaranma səbəbi və mənbəyi mübahisə mövzusudur. Çin və ABŞ rəsmi səviyyədə bu xəstəliyi yaymaqda bir-birilərini ittiham edirlər.**

Qəribə olsa da, COVID-19 peyda olan ilk gündən onun hədəfi iqtisadiyyat göstərilirdi. Çoxları başlanğıcda buna inanmasa da, tədricən həmin ehtimal özünü doğrultmağa başladı. Koronavirus pandemiyası ümumilikdə dünya iqtisadiyyatına ziyan vursa da, ondan külli miqdarda sərvət qazanan transmilli şirkətlər də oldu.

Amma bütün hallarda koronavirus dünya iqtisadiyyatı ilə yanaşı, insanların yaşayışına da ziyan vurdu. Dünyada ac və yoxsul insanların sayı sürətlə artmağa başladı. Çox ölkələrin milli valyutaları dollar qarşısında dəyər itirdiyi üçün alıcılıq qabiliyyəti aşağı düşdü. Baş verən hadisələrin nəticələrini araşdırdıqca da açıq-aşkar göründü ki, məqsədləri elə bu imiş.

Lakin sən demə, dünyanın başının üstündəki qara buludlar təkcə koronavirus deyilmiş. İndi çoxları etiraf edir ki, Rusiya-Ukrayna müharibəsi COVID-19-un davamıdır. Səbəbi isə birləşmiş Qərblə Rusiya qarşıdurmasıdır. Müharibənin başlanmasından keçən bir ildən çox zaman ərzində dünya iqtisadiyyatı nə qədər səy göstərsə də, özünə gələ bilmir. Qlobal iqtisadiyyat, necə deyərlər, "yağışdan çıxıb yağmura düşüb". İndi də bu "yağmur"a Çin-ABŞ qarşıdurması əlavə olunub. Son vaxtlaracan Qərb-Rusiya qarşıdurmasına seyrçi kimi kənardan baxan Çin qəti qərarını versə də, görünən odur ki, Rusiya ilə əməkdaşlığını davam etdirəcək. Bu qərar Çin rəhbəri Si Cinpin tərəfindən Moskvada keçirilən görüşdə verilib. ÇXR Sədrinin Rusiyaya son səfəri zamanı bütün sahələrdə əməkdaşlıq etmək barədə razılığa gəlinib. Həmin səfərin ən maraqlı nüansı və dünya mətbuatında geniş müzakirə olunan məqamı Si Cinpinin Vladimir Putinlə vidalaşarkən dediyi sözdür: "İndi 100 ildir olmayan dəyişikliklər baş verir. Biz birlikdə bu dəyişikliyi həyata keçirəcəyik". Dünyanın nüfuzlu hərbi və siyasi şərhçiləri bunu beynəlxalq aləmdə yeni bir nüfuz savaşının işarəsinin verilməsi kimi dəyərləndirirlər.

Dünya iqtisadiyyatı isə bu siyasi və hərbi gərginlikdən əziyyət çəkməkdə davam edir. O üzdən qlobal iqtisadiyyatın qan damarı olan Beynəlxalq Valyuta Fondunun (BVF) cari il üçün açıqladığı proqnozlar da ürəkaçan deyil. BVF-nin direktoru Kristalina Georgiyeva: "Qlobal iqtisadiyyat artıq bir müddətdir ki, təlatümlü mühitdə olub, şokdan sonra şok yaşayır. Biz 2023-cü ilin daha çətin il olacağını gözləyirik". Fond direktorunun açıqlamasından aydın görünür ki, koronavirus pandemiyasından sonra qlobal iqtisadiyyat ikinci zərbəni Rusiya-Ukrayna müharibəsi nəticəsində alıb. Məsələn, Avropanın ən böyük iqtisadiyyatına malik Almaniyanın dövlət borcu əvvəl-əvvəl yüksələrək rekord həddə çatmışdı. Almaniyanın Federal Statistika İdarəsi tərəfindən açıqlanan hesabata görə, belə vəziyyətin yaranmasına səbəb koronavirus pandemiyası və enerjidaşıyıcılarının qiymətinin bahalaşması olmuşdu. Rusiyanın da dövlət büdcəsinin kəsiri mart ayında rekord həddə - 3,3 trilyon rubla çatıb. Bu ölkə başladığı müharibənin qurbanına çevrilib. Onu da vurğulayaq ki, hər iki ölkə dünya iqtisadiyyatında önəmli yer tutan dövlətlərdir. Almaniya istehsalla, Rusiya isə xammal satışı ilə qlobal iqtisadiyyata təsir edə bilən ölkələrdən sayılır. Ancaq iqtisadiyyatında geriləmə olan ölkələr təkcə bunlar deyil. Dünyanın bütün ölkələri az və ya çox dərəcədə məlum problemlərlə qarşılaşıb.



Azərbaycana gəldikdə, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən balanslaşdırılmış xarici siyasət özünü növbəti dəfə doğruldur. Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, belə bir zamanda bir-biri ilə rəqabət aparan qüvvələrin ölkəmizə ehtiyacı yaranır. Avropa özünün enerji təhlükəsizliyində ölkəmizi vacib tərəfdaş kimi görür, Çin Azərbaycanı Orta dəhliz marşrutunda açar ölkə kimi qəbul edir, Rusiya "Şimal-Cənub" dəhlizi ilə üzünə bağlanan qapıların əvəzinə yeni qapılar açmaq istəyir. Azərbaycan isə bundan sonra da öz milli maraqlarını müdafiə edəcək, hər iki platformada qərar tutan ölkələrlə faydalı əməkdaşlığı davam etdirəcək. Unutmayaq ki, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki tarixi qələbəsindən sonra regionda və dünyada dəyəri və nüfuzu daha da artıb.

Bir də unutmaq lazım deyil ki, bu yüzillik türk əsridir. Azərbaycan Türk Dövlətləri Təşkilatının yaranmasında önəmli rol oynayan ölkədir. Bu təşkilatın dünyada mühüm siyasi və iqtisadi qərarların qəbulunda söz sahibi olmaq perspektivi böyükdür. Geniş coğrafi məkanı, zəngin təbii sərvətləri, 200 milyondan çox əhalini birləşdirən türk birliyi digər üstünlüklərə də sahibdir. Çin sərhədindən Avropaya qədər gedən dünyanın ən qısa və təhlükəsiz marşrutu olan Orta dəhliz türk coğrafiyasının ərazisindən keçir. Dünya ticarətinin şah damarına çevrilməyə başlayacaq bu yol təşkilatda cəmləşən ölkələrə həm iqtisadi, həm də siyasi dividendlər qazandıracaq. Belə olan halda birliyin üzvü kimi Azərbaycanın sözü və mövqeyi yeni dünya düzənində daha mötəbər olacaq. Çünki Türk Dövlətləri Təşkilatı yaxın bir dövrdə dünyanın nüfuzlu regional təşkilatına çevriləcək və Azərbaycan bu platformadan istifadə edərək qlobal siyasətə təsir göstərmək imkanı qazanacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

gəmiləri üçün konservləşdirilmiş qəza su və qəza qida rasionlarının satın alınması məqsədilə

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 aprel 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1016.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyində olan İstehsalat Xidmətləri İdarəsinin "Rabitə və elektroradionaviqasiya avadanlıqlarına texniki xidmət kamerası" sahəsinə tələb olunan mal-materialların satın alınması məqsədilə

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 aprel 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***



## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


AZƏRBAYCAN
Azərbaycan Tacikistan üçün mühüm tərəfdaşdır
Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfəri başa çatıb
İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşı "persona-non-grata" elan edilib
6 milyard dollarlıq sərmayə
Koronavirusa yoluxma sayı 100-ü keçdi, ölüm faktı artdı
Makron miqrantları Parisdən qovur
Sağlam həyat ömrü uzadır

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında videomüşahidə sistemlərinin ehtiyat nüsxələrinin yaradılması və videomüşahidə avadanlıqlarının təchizatı və quraşdırılması işlərinin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının qərarına əsasən, "B2B GROUP" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında kovrolit örtüyün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsi üzrə xidmətin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 29 mart 2023-cü il tarixli qərarına əsasən, "SKY VASH-R" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Çin ABŞ təşkilatlarına sanksiyalar tətbiq etdi

## Tayvanın hərəkətləri qorxunc və dəhşətli müharibəyə təkan verə bilər

Çin Xarici İşlər Nazirliyi Tayvan başçısı Tsay İnvenin ABŞ-yə tranzit səfəri zamanı "Bir Çin" prinsipinin pozulduğuna görə Amerika Qudzon İnstitutuna və Ronald Reyqan Kitabxanasına qarşı sanksiyalar tətbiq edib. Bu barədə Çin XİN-nin mətbuat xidməti məlumat yayıb.



Çin həmçinin Qudzon İnstitutunun idarə heyətinin sədri Sara Mey Stern və onun direktoru Con Uolters, eks-prezident Ronald Reyqan Fondunun sabiq başçısı Con Hoybuşa və onun icraçı direktoru Coanna Dreykə də sanksiyalar tətbiq edib. Onların Çinə girişi qadağan edilib və ölkədəki aktivləri dondurulub.

Qudzon İnstitutu və Ronald Reyqan Kitabxanası Tsay İnvenin separatçı tədbirləri üçün platforma təmin edib. Bunun nəticəsində Çinin suverenliyinə və ərazi bütövlüyünə ziyan dəyib və buna görə də ölkə XİN-i hesab edir ki, həmin yerlərdə Tsay İnvenin iştirakı ilə tədbirlərin keçirilməsi "Bir Çin" prinsipini pozub.

Bununla bağlı Çin XİN-in xüsusi Bəyanatında deyilir: "ABŞ tərəfi Çinin dəfələrlə etdiyi təqdimat və etirazlarına məhəl qoymayaraq, Tayvan regionunun başçısı Tsay İnvenin 29-31 mart və 4-6 aprel tarixlərində siyasi tədbirlərdə iştirak etmək üçün "tranzitlərinə" icazə almaqda israr edib".

Aprelin 5-də Tsay İnven tranzitlə ABŞ-də olarkən Nümayəndələr Palatasının spikeri Kevin Makkarti ilə görüşüb. Çin Xarici İşlər Nazirliyi onların söhbətinə etiraz edib və cavab tədbirləri görəcəyinə söz verib.

Beləliklə, Tayvan rəhbəri Tsay İnvenin ABŞ-yə səfəri və onun Nümayəndələr Palatasının spikeri Kevin Makkarti ilə Kaliforniyada görüşü ada ətrafında gərginliyin yeni mərhələsinə səbəb olub. Pekin Vaşinqtona etiraz edib və adanın yaxınlığına hərbi gəmilər göndərib.

Çin Xalq Respublikasının Kommunist Partiyası Tayvan administrasiyasının hərəkətlərinin qorxunc və dəhşətli müharibəyə təkan verdiyini bildirib və "separatçıları" cəzalandıracağına söz verib.

ABŞ-nin Dövlət katibi Entoni Blinken Tsayın görüşlərinin özəl və qeyri-rəsmi olduğunu deyərək onlara haqq qazandırmağa çalışıb. O əmin edib ki, Vaşinqton "Bir Çin" prinsipinə sadiqdir və xanım Tsayin səfəri Tayvan liderlərinin ABŞ-yə əvvəlki bütün səfərləri kimi şəxsi, qeyri-rəsmidir. Dövlət katibinin dediyinə görə, Vaşinqtonun məqsədi materik və Tayvan arasında dinc yolla istənilən ziddiyyətlərin aradan qaldırılmasını təmin etməkdir.

Lakin ÇXR-i belə izahatlar qane etməyib, xüsusən də Makkartinin tayvanlı qonaqla danışıqları zamanı adaya silah tədarükünün sürətləndirilməsi məsələsini müzakirə etməsi səbəbindən.

Nümayəndələr Palatasının spikeri iqtisadi əməkdaşlığın vacibliyini vurğulayaraq deyib: "Biz Tayvana silah satmağa davam etməli və silahların vaxtında çatdırılmasını təmin etməliyik".

Siyasətçinin sözlərinə görə, hazırda o, adaya səfər etməyi planlaşdırmır, lakin gələcəkdə belə bir səfəri istisna etmir və Çinin etirazlarına məhəl qoymayacaq.

Hələ Kaliforniya iclasından əvvəl Ağ Evin Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar üzrə əlaqələndiricisi Con Kirbi Çini həddindən artıq reaksiya verməkdən çəkinməyə çağırıb və xanım Tsayın ABŞ səfərini "tranzit" adlandırıb: "O, artıq altı dəfə səfər edib və hər dəfə gərginlik, demək olar düşmənçilik hökm sürüb. Eyni zamanda həm demokratlar, həm də respublikaçılar Çinə qarşı sərt mövqe nümayiş etdirirlər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "Azərişıq" ASC-nin sədri Balakəndə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov aprelin 6-da saat 10:00-da Balakən şəhərində Balakən və Zaqatala rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul Balakən şəhəri, Atatürk prospekti, 2A ünvanında yerləşən Balakən Elektrik Şəbəkəsinin inzibati binasında keçirilib.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Balakən şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciətlər qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz olacaq, regionlarda yağış yağacaq, dolu düşəcək

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə havanın çiskinli olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Cənub-şərq küləyi günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 8-11°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 17-22° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 9-14° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 9-14° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 7-10°, gündüz 15-20° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 12-17° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, intensiv olacağı ehtimalı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 6-9°, gündüz 14-18° isti, dağlarda gecə 5-7°, gündüz 9-14° isti olacaq.

# Laçın istiqamətində mövqelərimiz atəşə tutulub



Aprelin 7-si saat 13:20-dən 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Lənkəran rayon prokuroru Taryel Ələkbərova anası

**BƏNZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və kollektivi Lənkəran rayon prokuroru Taryel Ələkbərova anası

**BƏNZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5627**
**Sifariş 814**

**Qiyməti 40 qəpik**